Günəş Şərqdən doğur!

❒ № 122 (5403), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 13 iyul 2021-ci il (çərşənbə axşamı)



## Polad Həşimov və İlqar Mirzəyevin məzarı ziyarət olunub

(Səh.2)



## Münaqişə artıq keçmişdə qalıb

Hikmət Hacıyev: "Azərbaycanın xarici siyasəti bundan sonra da sülh və təhlükəsizliyin təmin edilməsinə yönələcək"

Bu tədbir bir il əvvəl Ermənistanın Azərbaycanın Tovuz rayonu istiqamətində dövlət sərhədində növbəti təcavüz aktına əl atması tarixinə təsadüf edir.

(səh.2)

## Rus sülhməramlıları aranı qarışdırır



Erməni zəvvarların Kəlbəcərə daşınmasının qarşısı alınmalıdır

(səh.5)

# Sabah çox gec olacaq



## Cəmiyyət özü narkomaniya ilə ciddi mübarizəyə başlamalıdır

(səh.9)

# Şəhid ailələrindən pul alan jurnalistlər həbs edilib

### Baş Prokurorluq məlumat yaydı

Bəzi kütləvi informasiya vasitələri və sosial media səhifələrində jurnalistlərin şəhid ailələrindən şəhidlər haqqında material hazırlamaq məqsədilə müxtəlif məbləğlərdə pul vəsaiti tələb etmələri barədə məlumatlar yayılıb.

(səh.5)



### ✓ 69 yeni yoluxma faktı qeydə alınıb

Daha 40 nəfər koronavirusdan sağalıb, 3 nəfər vəfat edib

(səh.2)

### ✓ Xarici diplomatların Şuşaya səfəri çox önəmli idi

"Ümid edirik ki, bu yaxınlarda belə səfərlər Xankəndidə də olacaq"

(səh.3)

### ✓ Biletlər bahadır, inhisarçılıq davam edir

Bu qədər narazılıqdan sonra AZAL yenə dəyişmir

(səh.8)

### ✓ Bu həftəsonuna qədər Bakıya yeni qatarlar gətiriləcək

(səh.15)

# Prezident İlham Əliyev İtaliya Prezidentini təbrik edib



**Prezident İlham Əliyev İtaliya Respublikasının Prezidenti Sercio Mattarellaya İtaliya milli yığma komandasının Avropa çempionu adını qazanması münasibətilə təbrik məktubu göndərib.**

*Məktubda deyilir:*

”Hörmətli cənab Prezident,

Futbol üzrə İtaliya milli yığma komandasının Avropa çempionu adını qazanması münasibətilə Sizi və Sizin simanızda bütün dost İtaliya xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Avropa birinciliyinin bütün oyunlarında yüksək ustalıq, böyük əzmkarlıq, yenilməz iradə nümayiş etdirmiş və öz tarixində ikinci dəfə bu yüksək titulu qazanmış İtaliya futbolçularına ən səmimi təbriklərimizi yetirir, onlara yeni-yeni uğurlar arzulayıram.

Əminəm ki, Azərbaycan ilə İtaliya arasındakı ənənəvi dostluq münasibətlərinin daha da genişlənməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın və strateji tərəfdaşlığımızın dərinləşməsi yolunda səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik. Bu əlamətdar anlarda sevincinizə qoşulur, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İtaliya xalqına daim rifah və əmin-amanlıq diləyirəm”.

## Nəsimi rayonunda yol tikintisinə iki milyon manat ayrıldı



**Prezident İlham Əliyev Bakı şəhərinin Nəsimi rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda deyilir:

- Bakı şəhərinin Nəsimi rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə ”Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
- Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
- Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

## Vətən Müharibəsi qəhrəmanlarına vergi güzəştləri tətbiq ediləcək



**Prezident İlham Əliyev ”Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanunu təsdiq edib.**

Əməl Məcəlləsinə edilən dəyişikliyə əsasən, Azərbaycan Respublikası Vətən Müharibəsi qəhrəmanlarına məzuniyyət 46 təqvim günündən az olmayaraq veriləcək.

Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, Azərbaycan Respublikasının Vətən Müharibəsi qəhrəmanlarının hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılacaq.

## 69 yeni yoluxma faktı qeydə alınıb

### Daha 40 nəfər koronavirusdan sağalıb, 3 nəfər vəfat edib




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 69 yeni yoluxma faktı qeydə alınıb, 40 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 337 323 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 330 802 nəfər müalicə olunaraq sağalıb, 4 987 nəfər vəfat edib, aktiv xəstə sayı 1 534 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 271, ötən müddət ərzində isə ümumilikdə 3 858 551 test aparılıb.

# Münaqişə artıq keçmişdə qalıb

### Hikmət Hacıyev: “Azərbaycanın xarici siyasəti bundan sonra da sülh və təhlükəsizliyin təmin edilməsinə yönələcək”



**“Bu tədbir bir il əvvəl Ermənistanın Azərbaycanın Tovuz rayonu istiqamətində dövlət sərhədində növbəti təcavüz aktına əl atması tarixinə təsadüf edir.**

Azərbaycan Silahlı Qüvvələri düşmənin hərbi təxribatlarını layiqincə cavablandırdı və 44 günlük Vətən müharibəsi nəticəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuzun qazandığı şanlı Zəfərin ölkəmizin tarixinə qızıl hərflərlə daxil oldu”.

Bunu ”44 günlük Vətən müharibəsi və müharibədən sonra Azərbaycanın xarici siyasəti” mövzusunda diplomatiya həftəsinin açılış mərasimində çıxışı zamanı Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Münaqişənin artıq keçmişdə qaldığını qeyd edən Prezidentin köməkçisi bildirib ki, Azərbaycanın qarşısında duran əsas vəzifələr xüsusilə azad olunmuş ərazilərin yenidən qurulması, bu ərazilərin minalardan təmizlənməsi, beləliklə, məcburi köçkünlərin öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə geri dönüşünün təmin olunmasıdır.

Hikmət Hacıyev bildirib ki, təməlində milli maraqlar dayanan Azərbaycan xarici siyasəti bundan sonra da bölgədə və dünyada sülh və təhlükəsizliyin, beynəlxalq hüququn təmin edilməsinə yönələcək.

# Polad Həşimov və İlqar Mirzəyevin məzarı ziyarət olunub

**İyulun 12-də Müdafiə Nazirliyinin rəhbərliyi Tovuz döyüşlərinin ildönümü münasibətilə İkinci Şəhidlər xiyabanını ziyarət edib.**

Müdafiə Nazirliyindən “Şərq”ə verilən məlumata görə, əvvəlcə ölkəmizin müstəqilliyi və ərazi bütövlüyünün təmin olunması uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib və ruhlarına dualar oxunub.

Sonra 2020-ci ilin iyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu sahəsində Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısını alarkən canlarını fəda etmiş şəhidlərimizin, eləcə də burada uyuyan bütün şəhidlərin məzarları ziyarət edilərək üzərlərinə gül dəstələri düzülüb.

Tovuz döyüşlərinin ildönümünə həsr olunan silsilə tədbirlər davam edir.

*Qeyd edək ki, 2020-ci il iyulun 12-də başlayan Tovuz döyüşlərində general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və daha 10 hərbçi qəhrəmancasına şəhid olub. Polad Həşimov və İlqar Mirzəyev II Fəxri xiyabanda dəfn olunub.*



# Regionda sürəti tormozlayan Rusiyadır



## "Sərhəd məsələsini Qarabağ söhbətinə qatmayın" ifadəsinin məntiqi əsası yoxdur

**Son günlər Azərbaycan-Ermənistan sərhədində bir neçə dəfə insident baş verib. Xüsusən, Ermənistan tərəfi Kəlbəcər, Tovuz və Gədəbəy istiqamətində Azərbaycan Ordusunun mövqelərini atəşə tutaraq atəşkəsi kobud şəkildə pozublar.**

Məsələ ondadır ki, Rusiya tərəfi, özü də hər dəfə Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarovanın diliylə "Azərbaycan-Ermənistan sərhədində baş verənlərin Qarabağ nizamlanması ilə əlaqəsi yoxdur" ifadələrini səsləndirir. M.Zaxarova ən azı üç-dörd dəfə eyni ifadəni təkrar edib, hər sərhəd təxribatında bu cümləni təkrarlayıb: "Qarabağda Rusiya sülhməramlı qüvvələrinin məsul olduğu zonada vəziyyət nisbi sabit olaraq qalır. Azərbaycan-Ermənistan dövlət sərhədinin ayrı-ayrı rayonlarındakı insidentlərin Qarabağ nizamlanması ilə birbaşa əlaqələndirilməsi doğru deyil. Bu insidentlər Azərbaycanla Ermənistan arasında beynəlxalq hüquqi formalaşmış sərhədin olmamasının nəticəsidir". XİN təmsilçisi Rusiyanın sərhəd problemində də tərəflər arasında vasitəçi olmağa, yardım etməyə hazır olduğunu söyləyib: "Məsələnin uzunmüddətli və dayanıqlı həllini Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiya prosesinə tezliklə başlanmasında görürük. Biz buna konsultativ yardım etməyə hazırıq".

**Kremlin bəyanatlarını "Şərq"ə dəyərləndirən "Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov vurğulayıb ki, Rusiya bütün məsələlərdə maraqlarını ön planda saxlayır.** Analitikin sözlərinə görə, Moskva öz maraqlarının təmin olunması istiqamətində bütün vasitələrə əl atır: "Hesab edirəm ki, Ermənistan silahlı birləşmələrinin Kəlbəcəri, Tovuzu, Gədəbəyi atəşə tutması birbaşa İrəvanın öz təşəbbüsüdür. Rusiyanın bu və ya digər formada burada rolu var. Moskvanın vəziyyəti qəsdən və süni şəkildə gərginləşdirməsinin arxasında müəyyən məqsədlər var. Həm də Kreml çalışır ki, özünü Azərbaycan-Ermənistan arasındakı sərhəd problemində vasitəçi göstərsin. Eyni zamanda Zəngəzur dəhlizinin açılmasının mümkün qədər yubanmasını, proseslərin ləng getməsini istəyir. Çünki regionda qeyri-stabilliyin qalmasında maraqlı deyil. Bütün proseslərə özünü soxmaqla Cənubi Qafqazda varlığını qorumağa çalışır. Amma sözdə başqa şey söyləyib, əməldə tamam fərqli addım atmaqla Rusiyanın bölgədə qalması imkansızdır".

S.Hümbətov bəyan edib ki, nizamlanma prosesinə ümumilikdə yanaşanda, burada həm Qarabağ məsələsi, həm sərhəd insidentləri, həm də Zəngəzur dəhlizinin olduğu şübhəsizdir: "Bir-biri ilə əlaqəlidir və Azərbaycan-Ermənistan arasında yaşanan proseslərlə bağlıdır. "Sərhəd məsələsini Qarabağ söhbətinə qatmayın" ifadəsinin məntiqi əsası yoxdur. Hazırda Ermənistanla yaşanan bütün gərginliyin təməlində ikili münasibətlərin normal olmaması amili durur. Normallaşma prosesində bir problemi ələ alıb, digərini görməzdən gəlmək qeyri-mümkündür və effektsizdir".

**İsmayıl Qocayev**



## Xarici diplomatların Şuşaya səfəri çox önəmli idi

### "Ümid edirik ki, bu yaxınlarda belə səfərlər Xankəndidə də olacaq"

**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin dəvəti ilə ölkədəki xarici dövlətlərin səfirləri Şuşaya səfər etdilər.**

Türkiyə, Pakistan, İtaliya, Avstriya, İsveç, Polşa, İsrail, Çin, Yaponiya, Malayziya, Cənubi Koreya, Belarus, Ukrayna, Braziliya, Meksika, Səudiyyə Ərəbistanı, Qətər, Əlcəzair və digər ölkələrin səfirləri, həmçinin BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının, Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri də səfərdə olublar.

Səfərdə məqsəd xarici diplomatları Şuşa şəhərində həyata keçirilən bərpa və yenidənqurma işləri, Şuşa şəhərinin orijinal arxitektura üslubu və Azərbaycan xalqının milli-mədəni irsi ilə tanış etməkdir.

**AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli xarici diplomatların Şuşa səfərinin əhəmiyyəti barədə fikirlərini "Şərq"lə bölüşüb:** "Diplomatların Şuşaya gedişi kifayət qədər önəmli idi. Prezidentin xarici diplomatları Şuşaya dəvət etməsi siyasi və diplomatik bir addımdır. Bir çox ölkə nümayəndəsi səfərdə oldu və bu, "Qarabağ Azərbaycanındır" təbliğatının siyasi müstəvidə görüntüsü üçün çox vacib tədbir idi. Bu baxımdan sözügedən səfəri olduqca yüksək qiymətləndirirəm. Belə addımların davamı gəlməlidir. Ümid edirik ki, bu yaxınlarda belə səfərlər Xankəndidə də olacaq".

**Yeganə**



## Regiona gəlmək istəyirlər

### Silahlı insidentlər Qərbin məkrli planıdır

**Məlum olduğu kimi, Ermənistan silahlı qüvvələri bu günlərdə Gədəbəy istiqamətində də atəşkəsi pozdular.**

Bu, Nikol Paşinyanın hakimiyyətini bərpa etməsindən sonra yaşanan ilk provokasiya deyil. Görünür, hansısa ciddi məqsəd var...

**Siyasi analitik Turab Rzayev "Şərq"ə açıqlamasında son prosesləri belə şərh edib:** "Fikrimcə, baş verənlər Qərbin məkrli planıdır. Qərb ölkələri regiona gəlmək istəyirlər. Və bu məqsədlə müxtəlif cəhdlər edirlər. Dediyim kimi, bu, Azərbaycan xalqına və dövlətinə qarşı açıq-aydın məkrli plandır. Biz Qərb dövlətlərindən konkret cavab tələb etməliyik. Əgər Azərbaycanın ərazi bütövlüyünü tanıyırlarsa, onda bildirməliyik ki, belə davranışlara ehtiyac yoxdur".

**Kənan**

# Sanksiyalar daha çox zahiri xarakter daşıyır

### Bu qadağalar Rusiyanın iqtisadiyyatına böyük ziyan vurmayacaq

**Avropa İttifaqı Rusiyaya qarşı iqtisadi sanksiyaların müddətini 31 yanvar 2022-ci il tarixinə qədər uzadıb. Bu barədə "RİA Novosti" məlumat yayıb.**



Nəşrə danışan mənbə bildirib ki, Avropa ölkələrinin liderləri bu barədə 24-25 iyunda keçirilən sammitdə razılığa gəlib.

**Millət vəkili Asim Mollazadə sanksiyaların uzadılma səbəbi və Rusiyaya nə kimi təsir edəcəyi barədə "Şərq"ə açıqlama verib.**

Deputatın fikrincə, Aİ və ABŞ-ın Rusiyaya qarşı sanksiyaları əsasən Ukraynanın Krım və Donbass vilayətindəki hadisələrlə bağlıdır:

"Sanksiyaların uzadılmasına səbəb bu istiqamətdə heç bir dəyişikliyin olmaması ilə əlaqədardır. Baxmayaraq ki, "Norman formatı" müəyyənləşdirilib, ancaq bu format mənə Minsk qrupunun indiyə qədər olan fəaliyyətini xatırladır. Daha çox danışıqlar aparılır, nəinki hansısa nəticə əldə etmək üçün iş görülür. Sözügedən qurumun sanksiyaları Rusiyanın daxilindəki insan hüquqları, Navalnının zəhərlənməsi və həbsi ilə də əlaqədardır. Bu istiqamətdə hansısa irəliləyiş olmadığı üçün qurum sanksiyaların vaxtını uzadıb".

A.Mollazadə qeyd edib ki, sanksiyaların uzadılması əslində Rusiyanın iqtisadiyyatına ciddi xələl gətirmir:

"Təbii ki, Rusiyanın ticarət dövriyyəsi və ölkəyə yatırımlar azalır. Lakin "Şimal axını" layihəsini artıq avqust ayında bitirəcək və Rusiyanın enerji sahəsində Aİ ölkələri, xüsusilə də Almaniyaya qaz layihəsi ilə bağlı hansısa sanksiyaları yoxdur. Ona görə də Rusiyanın bu istiqamətdə Almaniya ilə əməkdaşlığı davam etdirilir.

Fransa ilə bağlı da müəyyən sahələrdə əməkdaşlıq qüvvədədir. Ona görə də bu sanksiyalar daha çox zahiri xarakter daşıyır. Aİ və ABŞ Rusiyanın hansısa sərt addımlarına öz reaksiyasını bildirmək üçün sanksiya tətbiq ediblər. Rusiya üçün hansısa ciddi fəsadlar yaranmayacaq".

**Yeganə Bayramova**



## Görünür, hansısa məşvərət olub

### "Könül istərdi ki, öz axundumuz pişnamazlıq etsin"

**Diplomatların Şuşaya səfəri zamanı İran mollası Seyid Əliəkbər Ocaqnejadın pişnamazlıq etməsi diqqət çəkib.**

Béziləri məsələni siyasiləşdiriblər. Siyasi analitik, jurnalist Azər Həsrət bu barədə deyib: "İran ömrü boyu Ermənistanı dəstəkləyib və dəstəkləməyə də davam edir. Boğulmaqda olan Ermənistanın tək bir nəfəsliyi var, o da İrandır!

Üstəlik də bu şarlatanlar Azərbaycana "müsəlman qardaşlarımız" deyib o tərəfdə də erməniyə hər cür dəstək verirlər. Ona görə də bu adamların Şuşa daxil işğaldan azad edilmiş heç bir torpağımıza ayağı dəyməməlidir!".

**AĞ Partiya sədri Tural Abbaslı isə "Şərq"ə açıqlamasında məsələni siyasiləşdirməyin əleyhinə olduğunu bildirib:** "Əlbəttə, könül istərdi ki, öz axundumuz pişnamazlıq etsin. Amma görünür, hansısa məşvərət olub. Bu, dini ayin olduğuna görə çox tənqid etmək istəmirəm. Fikrimcə, cəmiyyətdə ajiotaj yaradan hadisə barədə izah veriləcək".

**Kənan**

# Beynəlxalq Onlayn Təlim Proqramı öz işinə başlayıb

**Dünən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) tərəfdaşlığı, Türk Işbirliği ve Koordinasyon Ajansı (TİKA), Anadolu Ajansı Haber Akademiyası və Türkiye Radyo Televizyon Kurumunun (TRT) təşkilatçılığı ilə Distant Təhsil Layihəsi çərçivəsində "Böhran vəziyyətlərində jurnalistika" Beynəlxalq Onlayn Təlim Proqramı öz işinə başlayıb.**




12-14 iyul 2021 ci il tarixlərində "Zoom" platforması üzərindən videokonfrans formatında keçirilən təlimdə dünyanın bir çox ölkələrinin jurnalistləri ilə yanaşı Azərbaycan Respublikasının çap, onlayn və audiovizual media subyektlərini təmsil edən 20 jurnalist iştirak edir.

Üç günlük təlim zamanı "Böhran və münaqişə bölgələrində jurnalistika", "Dezinformasiyaya qarşı mübarizə", "Yalan məlumatların artmasında sosial şəbəkələrin rolu", "Jurnalistika və etika", "Münaqişə bölgələrində humanitar hüquq və prinsiplər", "Beynəlxalq hüququn pozulması anlayışı", "Axtarış və xilasetmə işləri barədə məlumatlandırma", "Fəlakətdən xilas olan ailələrinin ehtiyac duyduğu məlumatlar", "Münaqişə mühitində jurnalistin təhlükəsizliyi və psixologiyası", "Böhran və münaqişəli bölgələrdən xəbər çatdırmağın yolları" və s. mövzularda media nümayəndələrinə Türkiye Radyo Televizyon Kurumunun (TRT) mütəxəssisləri tərəfindən mühazirələr oxunacaq.

İngilis dilində təşkil olunmuş beynəlxalq təlim rus, ərəb, fransız və türk dillərinə sinxron tərcümə edilir.

*Layihə çərçivəsində iştirakçıların qiymətləndirilməsi (iştirak 50% / sual vermək və fikir bildirmək 50%) həyata keçiriləcək. Təlimlərdə fərqlənmiş jurnalistlərə müvafiq beynəlxalq sertifikatlar təqdim olunacaq.*



## Türkiyə səfiri "Qırmızı Körpü" gömrük postunun fəaliyyəti ilə tanış olub

**İyulun 11-də Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı, Türkiyə Respublikasının Gəncə şəhərindəki Baş konsulu, səfirliyinin ticarət müşavirləri Dövlət Gömrük Komitəsinin aidiyyəti strukturlarının rəhbərləri ilə birlikdə Qərb Ərazi Baş Gömrük İdarəsinin Gürcüstanla sərhəddə yerləşən "Qırmızı Körpü" gömrük postunun fəaliyyəti ilə yaxından tanış olublar.**

Dövlət Gömrük Komitəsindən Trend-ə verilən məlumata görə, Komitənin nümayəndələri səfir Cahit Bağçıya tranzit daşımalar, "Yaşıl dəhliz" buraxılış sistemi, sərhədkeçmə proseslərinin təşkili, stasionar gömrük nəzarət baxış sistemləri barədə məlumat veriblər. Eyni zamanda, qardaş ölkənin səfiri gömrük postunda türkiyəli sürücülərlə görüşüb.

# İmtinanın arxasında qaranlıq məqamlar var



## Həmsədr ölkələr Azərbaycanın qələbəsini həzm edə bilmirlər

**"9-10 iyul 2021-ci ildə ölkə başçısı cənab İlham Əliyevin tapşırığı ilə ölkəmizdəki diplomatik korpusun başçılarının Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfəri təşkil edilib. Səfərin təşkilində əsas başçılığı prezidentin köməkçisi Hikmət Hacıyev edirdi. Burada diqqəti çəkən bir vacib nüans diqqətdən yayınmadı".**

*Bu fikirləri "Şərq"ə açıqlamasında politoloq Samir Hümbətov deyib.* O vurğulayıb ki, xarici ölkə səfirlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfəri ilə bağlı təklifi üç ölkə səfiri qəbul etməyib və bu səfərdə iştirak etməyib: "Bu ölkələr ATƏT-in Minsk qrupunun həmsədrləri ABŞ, Rusiya və Fransadır. Bu ölkələrin səfirlərinin Şuşaya səfərdən imtina etməsinin arxasında bir neçə nüansın olduğunu düşünmək mümkündür.

Birincisi, hələ də ATƏT-in Minsk qrupunun həmsədrlərinin Azərbaycanın öz ərazilərini işğaldan azad etməsini həzm edə bilməməsidir. İkincisi, bu ölkələrin hələ də münaqişəni böyütmək və münaqişədə özlərinin iştirakını təmin etməkdi. Üçüncüsü, öz ölkələrində erməni lobbisini özlərindən küsdürməmək siyasətini tutmasıdır. Dördüncüsü, dünyaya özlərini guya "bitərəf" dövlətlər kimi göstərmək cəhdləri və s. ilə əlaqələndirməkdir.

*S.Hümbətov qeyd edib ki, Qarabağ münaqişəsinin niyə 30 ilə yaxın müddətdə həll edilə bilməməsinin də səbəbinin arxasında məhz belə ikiüzlü siyasətin dayandığını demək mümkündür:* "Baş verən hadisədən belə nəticəyə gəlmək olar ki, sözügedən üçlük üçün Azərbaycanın ərazi bütövlüyünü təmin etmək ciddi narahatlıq kimi görünür. Təbii ki, kimin nə düşünməsinin bizim üçün heç bir önəmi yoxdur. Bizim üçün önəmli olan ərazi bütovlüyümüzün təmin edilməsidir".

**Aynurə Pənahqızı**

Prezident İlham Əliyevin dəvəti ilə ölkədəki xarici dövlətlərin səfirləri Şuşaya səfər etdilər. 46 ölkənin diplomatik nümayəndəlik rəhbərlərinin qatıldıqları səfərə Rusiya, Fransa və ABŞ səfirləri təşrif buyurmadılar.



Mixail Boçarnikov, Zakari Qross və Erl Lisenbergerin imtinası əslində siyasi və diplomatik demarşdır. Məlumdur ki, diplomatların Şuşa səfəri Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi tapşırığı əsasında təşkil olunmuşdu.

Şuşaya yollanmaqdan boyun qaçıran səfirlər bu minvalla guya,

# Səfirlərin Şuşaya getməməsi bizim üçün ciddi problem yaratmır

### "Müəyyən bir zamandan sonra özləri rica edəcəklər ki, Azərbaycan tərəfi onları Şuşaya aparsın"

Minsk qrupunun həmsədrlərinin Ermənistanla münasibətlərini kəskinləşdirmək istəmirlər. Səfirlərin İrəvana yarınmaq istəyi aydındır, lakin əzəli Azərbaycan şəhəri, ölkəmizin mədəniyyət paytaxtı olan Şuşanın Ermənistana nə dəxli və əlaqəsi var? İstənilən halda üç səfirin bu kobud və aşkar demarşı Azərbaycanın ABŞ, Rusiya və Fransa ilə münasibətlərinə təsirsiz ötüşməyəcək.

**Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli "Şərq"ə bildirib ki, səfirlər Minsk qrupunun həmsədrləri olduğu üçün belə əsaslandırırlar ki, guya, tərəfsiz qalmalıdırlar:** "Yəni "bitərəflik" prinsipi pozulmasın deyə Şuşaya getməkdən imtina ediblər. Əslində bu, həm də erməni lobbisinin gücünün nəticəsidir. Onsuz da Fransanın mövqeyi məlum idi, Rusiya və ABŞ-ın isə belə bir addım atması əslində Azərbaycan üçün böyük problem yaratmır. Sadəcə görünür ki, bütün bunların baş verməsəbəbi hər iki ölkədəki erməni lobbisinin gücüdür. Rusiyaya gəldikdə isə Rusiya ilə erməni cəmiyyəti iç-içədir. Bu gün Rusiya istəmir ki, Ermənistanda yaşanan proseslərdə mövqesiz və ciddi şəkildə zərər görsün. Onsuz da Paşinyanla bağlı kifayət qədər ziyandadırlar. Eyni zamanda Rusiya Qarabağdakı müşahidəçi missiyasını həyata keçirməklə də özünü kifayət qədər problemə salmış oldu. Bu baxımdan əslində hər üç səfirin Şuşaya getməməsi elə də ciddi problem yaratmır".

Ə.Əlibəylinin sözlərinə görə, müəyyən bir zamandan sonra səfirlərin özləri rica edəcəklər ki, Azərbaycan tərəfi onları Şuşaya aparsın: "Ancaq düşünürəm ki, bəzi ölkələrin etimadnaməsi və rəsmi qəbulunun məhz Şuşada həyata keçirilməsi çox adekvat bir addım olardı. Çox güman ki, belə də olacaq. Bu zaman həmin ölkə rəsmilərinin bölgəyə getməmə kimi bir lüksü olmayacaq və məcburən gedəcəklər".

**Yeganə Bayramova**

# Tovuz döyüşlərindən 1 il ötür

## Polad Həşimovla başlanan qəhrəmanlıq dastanı Zəfərlə bitdi





*Azərbaycan Ordusunun şanlı qəhrəmanlıq səhifələrindən biri olan Tovuz döyüşlərindən bir il ötdü. Vətən müharibəsi kimi Tovuz hadisələri də hərb tariximizin şərəfli səhifələrindəndir. Həmin döyüşlərdə işğalçı Ermənistan silahlı qüvvələrinə layiqli cavab verən Azərbaycan ordusu düşmənə sarsıdıcı zərbələr endirərək geri çəkilməyə məcbur etdi.*

16 iyuladək davam edən döyüşlərdə böyük qəhrəmanlıq göstərən general-mayor Polad Həşimov və digər hərbiçilərimiz şəhidlik zirvəsinə yüksəldilər. 2020-ci ilin iyulun 12-dən günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəsi kobud şəkildə pozdular. Azərbaycan Ordusunun mövqelərini iriçaplı silahlardan və ağır artilleriyadan atəşə tutdular. Ermənistan silahlı qüvvələrinə aid zirehli texnika və canlı qüvvələrin yerdəyişmələr etdiyi müşahidə olundu. Düşmən dövlət sərhədində irimiqyaslı təxribata əl atdı. Amma düşmənin təxribatının qarşısı alındı və dayaq nöqtələri, yüzlərlə hərbi qulluqçusu məhv edildi. Tovuz döyüşlərinin ilk günündə düşmən təxribatının qarşısı alınarkən Azərbaycan Ordusunun 3 hərbi qulluqçusu şəhidlik zirvəsinə yüksəldi, 5 nəfər yaralandı. Döyüşlər zamanı Ermənistan ordusunun şəxsi heyəti çoxsaylı itki verdi. Tovuz istiqamətində gərginlik iyulun 13-nə keçən gecə də davam etdi. Artilleriya, minaatan və tankların tətbiqi ilə gedən gecə döyüşlərində Azərbaycan Ordusunun dəqiq atəşi ilə qarşı tərəfin dayaq məntəqəsi, artilleriya qurğuları, hərbi hissəsi ərazisində avtomobil texnikası və canlı qüvvəsi məhv edildi. Tovuz döyüşləri iyulun 17-də Azərbaycan Ordusunun qələbəsi ilə yekunlaşdı və heç bir ərazi itkisi olmadı. Döyüşlərdə general-mayor, Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimov başda olmaqla 12 hərbi qulluqçumuz şəhid oldu.

Tovuz döyüşləri zamanı böyük insan izdihamı ilə Azərbaycan Ordusuna dəstək aksiyaları keçirildi. İyulun 14-də Bakıda Silahlı Qüvvələrə və Ali Baş Komandana çoxminlik dəstək yürüşü baş tutdu. Yürüşdə xalq Azərbaycan Ordusunun və Ali Baş Komandanının yanında olduğunu, onu dəstəklədiyini yüksək səviyyədə bəyan etdi. Minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şəhər və rayon şöbələrinə axışıb könüllü olaraq orduya yazıldılar. 5 günlük Tovuz döyüşləri Azərbaycanın uzun illər işğal altında olan torpaqlarının azad olunmasına yol açdı. 2020-ci ilin sentyabrın 27-dən etibarən Azərbaycan Ordusu tərəfindən düşmənin təxribatlarına qarşı əks-hücum əməliyyatlarına başlanıldı. 44 gün davam edən Vətən müharibəsi nəticəsində Azərbaycanın 30 ilə yaxın işğal altında olan torpaqları düşməndən azad edildi.

**Millət vəkili Aydın Mirzəzadə deyib ki, Tovuz döyüşlərində Ermənistan silahlı qüvvələrinin növbəti hərbi təxribatına Azərbaycan Ordusu sarsıdıcı cavablar verdi. Deputatın sözlərinə görə, düşmən ölkəmizin hərbi qüdrətini bütün ağırlığı ilə öz üzərində hiss etdi:** "Bu, Azərbaycan Prezidenti, cənab İlham Əliyevin apardığı düzgün siyasi kurs nəticəsində mümkün olmuşdu. Cəmiyyətin Prezidentin siyasətini dəstəkləməsi, dövlətimizin iqtisadi gücü və yüksək siyasi nüfuzu Ermənistana layiqli cavabı verməyə imkan yaratmışdı. Tovuz döyüşləri 2016-cı il aprel döyüşlərindən gələn qələbə əzmini daha da gücləndirdi. Azərbaycan xalqının Ermənistanın işğal faktına dözmək fikrində olmadığını bir daha göstərdi. Qarşıda isə Azərbaycanı tarixi kökündən dəyişən və ərazi bütövlüyümüzü təmin edən şanlı Vətən müharibəsi gözləyirdi".

**Araşdırmaçı-jurnalist Kənan Rövşənoğlu da bildirib ki, Tovuz döyüşləri və general Polad Həşimov başda olmaqla hərbçilərimizin şəhid olması yığılmış qəzəbin üzə çıxmasına səbəb oldu:** "İlk dəfə general və onunla birlikdə eyni vaxtda bu qədər yüksək rütbəli hərbçi cəbhədə şəhid olmuşdu. Bu hadisə xalqı sözün həqiqi mənasında tərpətdi. "Kasanın dolması üçün lazım olan son damla" generalın şəhadəti oldu. Tarix boyu bir çox böyük hadisələr olub ki, bir təkanla alovlanıb. Qarabağ müharibəsində də general Polad Həşimov və digər hərbçilərin Tovuzda şəhid olması bu cür hadisə oldu. Bütün tərəflərdən yetişən hadisənin alovlanması üçün qığılcım lazımdı. O "qığılcım" isə Tovuz hadisəsi idi. Xoşbəxt insan odur ki, onun həyatı və ölümü xalqı üçün xeyirli bir işə xidmət edir".

**İsmayıl Qocayev**



# Şəhid ailələrindən pul alan jurnalistlər həbs edilib

## Baş Prokurorluq məlumat yaydı

**Bəzi kütləvi informasiya vasitələri və sosial media səhifələrində jurnalistlərin şəhid ailələrindən şəhidlər haqqında material hazırlamaq məqsədilə müxtəlif məbləğlərdə pul vəsaiti tələb etmələri barədə məlumatlar yayılıb.**

Baş Prokurorluğun Mətbuat xidmətindən APA-ya verilən məlumata görə, həmin xüsusatlar üzrə Baş Prokurorluğun Cinayət təqtibindən kənar icraatlar idarəsində araşdırma aparılıb.

Belə ki, araşdırmalarla Azər Kazımovun Rübabə Vəliyeva ilə birlikdə 2021-ci il iyunun 23-25-də özlərini televiziya əməkdaşları kimi təqdim edərək, Qəbələ şəhəri və kəndlərində yaşayan şəhid ailələri barədə çəkilişlər çəkib efirdə yayımlamaq adı ilə şəhid analarından cəmi 240 manat məbləğində pulu aldatma yolu ilə ələ keçirib televiziya yayımlarını həyata keçirmədikləri müəyyən edilib.

Azər Kazımovun və Rübabə Vəliyevanın barəsində İnzibati Xətalar Məcəlləsinin 227-ci (xırda talama) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanılaraq aidiyyəti üzrə məhkəməyə göndərilib və hər iki şəxs barəsində müvafiq olaraq iki və bir ay olmaqla inzibati həbs növündə inzibati tənbeh seçilib.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu kimi həssas hallardan sui-istifadə edərək qanun pozuntularına yol vermiş şəxslərin məsuliyyətə cəlb olunacaqları ilə bağlı xəbərdarlıq edir.

# Rus sülhməramlıları aranı qarışdırır

## Erməni zəvvarların Kəlbəcərə daşınmasının qarşısı alınmalıdır

*Rus sülhməramlıları erməni "zəvvarları" növbəti dəfə Gəncəsər və Amaras monastırlarına aparıblar. Rusiya Müdafiə Nazirliyinin məlumatına görə, sülhməramlılar "zəvvarların" təhlükəsizliyini təmin etmək üçün yol boyu onları müşayiət ediblər. Sülhməramlı kontingentin zabiti Mark Yeqorçik bildirib ki, ümumilikdə, 50-dən çox adam müşayiət olunub:*

"30 nəfər zəvvar üçün idarədən avtobus ayrılıb, qalanları isə rus sülhməramlılarının müşayiəti ilə şəxsi nəqliyyat vasitəsi ilə gəliblər. İkinci marşrutda Xankəndidən Gəncəsər monastrına 40-dan çox dindar müşayiət olunub. Daha sonra hərbçilər bütün zəvvarları geri qaytarıblar". Məlumat üçün deyək ki, Gəncəsar və Amaras monastrları Kəlbəcər və Xocavənd rayonlarında yerləşir. Digər məlumata əsasən, Kəlbəcərin Xudavəng məbədində 7 erməni keşiş məskunlaşıb. Onların təhlükəsizliyini də Rusiya sülhməramlıları təmin edirlər. Rus sülhməramlıları öz missiyalarından başqa hər cür işlə məşğul olurlar. Özlərini "məsul" saydıqları vəzifələrdən biri də erməniləri Azərbaycan torpaqlarındakı kilsələrə daşımaqdır. Problem odur ki, rusların müşayiəti ilə 50-60 nəfər ermənin tez-tez Azərbaycan torpaqlarındakı məbədlərə, qədim Alban kilsələrinə gediş-gəlişi ictimaiyyətin etirazına səbəb olur. Çünki həmin abidələr qədim Alban-udi məbədidir. Lakin ermənilər alban məbədlərini "qədim erməni irsi" elan edərək, əleyhimizə təbliğat aparır, məbədlərimizi "özününküləşdirməyə" cəhd göstərirlər. O da məlumdur ki, iki yüz ildir Azərbaycana qarşı etnik düşmənçiliyin və terrorun mərkəzində dayanan güc erməni kilsəsidir. Türklərə qarşı nifrət və terrorçuluq ideologiyasının təbliğində erməni keşişlərinin müstəsna rolu olub.

**Politoloq Əhəd Məmmədli "Şərq"ə açıqlamasında deyib ki, ruslar bu cür ucuz gedişlərlə Azərbaycan xalqının əsəblərini tarıma çəkməkdədir.** Ekspertin fikrincə, məqsəd Moskvanın əlində rəsmi Bakıya təzyiq metodlarının olmasını göstərməkdir: "Birincisi, Azərbaycanın ərazi bütövlüyü tam təmin olunandan sonra ölkəmizə icazəmiz olmadan hansısa xarici ölkə vətəndaşının daxil olması mümkün olmayacaq. İkincisi isə bu gün ermənilərin ziyarət etdikləri kilsələr qədim Alban məbədləridir, yəni xalqımıza məxsus abidələrdir. Ona görə də Kəlbəcər məbədlərində erməni yox, alban-udilərə məxsus rahiblər yerləşdirilməlidir. Məbədlərimizə ruslar tərəfindən yerləşdirilən erməni keşişlər dərhal uzaqlaşdırılmalıdır. Ərazilərimiz üzərindəki kilsələrə bərabər tam nəzarətimizə keçməlidir. Ən əsası isə erməni zəvvarların ruslar tərəfindən Kəlbəcərə daşınmasının qarşısı alınmalıdır. Təcavüzkar, cinayətkar ermənilər nə vaxtdan dindar, Allah yolunu tutan olublar?! Əgər həqiqi dindarlardırsa, öz xarabalarındakı kilsələrə getsinlər. Niyə israrla Kəlbəcərə, Xocavəndə gəlmək istəyirlər? Bu məsələyə ciddi yanaşmalıyıq. Erməni keşişlərinin Azərbaycandakı kilsələrə gediş-gəlişinə imkan veriləcəksə, o zaman biz də İrəvanda məscid məsələsini qaldırmalıyıq. Ermənistan tərəfi yandırdığı, məhv etdiyi məscidləri bərpa etsin və azərbaycanlıların ibadətinə şərait yaratsın. Rusiya qarşısında bu tələblərlə çıxış etməliyik".



**"O məbədlərdə erməni yox, alban-udilərə məxsus rahiblər yerləşdirilməlidir"**

**İsmayıl Qocayev**

# "Proseslərə real yanaşmaq lazımdır"

## "Səfirlərin Şuşaya getməməsi ATƏT-in Minsk qrupunun kənarda qalmasına edilən etiraz formasıdır"



Xəbər verdiyimiz kimi ölkəmizdəki diplomatik korpusun və beynəlxalq təşkilatların nümayəndələrinin Şuşaya səfəri təşkil olunub. Səfər çərçivəsində diplomatlar və beynəlxalq təşkilatların təmsilçiləri öncə Füzulidə beynəlxalq hava limanının tikintisi və yarımstansiya ilə tanış olublar. Sonra Şuşaya səfər edərək Saatlı, Aşağı Gövhər Ağa, Yuxarı Gövhər Ağa məscidlərinə, tarixi Şuşa Bəyannaməsinin imzalandığı əraziyə baş çəkiblər.

Şəhərin mərkəzi meydanında Azərbaycan mədəniyyətinin tanınmış simaları Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin "güllələnmiş heykəllərini ziyarət ediblər. Pənahəli xanın sarayının qalıqları olan əraziyə, Mehmandarovların malikanə kompleksinə, Qazançı kilsəsinə baxış keçiriblər. Ümumilikdə 100-dən çox xarici diplomatik nümayəndə Şuşa şəhərinə səfərə qatılıb. Səfərin təşkil edilməsində əsas məqsəd ilk növbədə diplomatları işğal dövründə Ermənistanın bölgədə apardığı vandalizm aktları ilə tanış etmək idi. Həm də postmüharibə dövründə dövlətin apardığı abadlıq-quruculuq və təmir-bərpa işləri ilə tanışlıq məqsədi güdülürdü. Xarici dövlətlərin bir çox diplomatı az bir zaman kəsiyində görülən yenidənqurma, təmir-bərpa işlərinə heyran qaldıqlarını gizlətmədi. Şuşaya səfəri ilə bağlı sosial mediadakı paylaşımına görə ermənilərin aqressiyası ilə qarşılaşan Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski tvitterdə belə yazmışdı: "Arzular çin oldu! Mən Qarabağın ürəyinə, Azərbaycan xalqının mənəvi paytaxtına - Şuşa şəhərinə səfər etdim. Bu mənim həm Azərbaycanın böyük tarixi və mədəni irsi ilə, həm də azad olunmuş ərazilərdə irimiqyaslı yenidənqurma bərpa işləri ilə ilk tanışlığım oldu". Çinin ölkəmizdəki səfiri, xanım Qo Min isə Qarabağa, Şuşaya səfərdən çox məmnun olduğunu qeyd edərək aşağıdakıları söylədi: "Mən çox heyrətləndim. Qısa müddətdə bu qədər nəhəng işlər görülüb. Təəssüratlarım çox zəngindir".

Ancaq təəssüflər olsun ki, Şuşa şəhərində ermənilərin törətdiyi vandalizm və Azərbaycanın başlatdığı yenidənqurma işləri ilə tanış olan xarici diplomatlar arasında ATƏT-in Minsk qrupunu təmsil edən üç ölkənin səfiri yox idi. Münaqişənin sülh yolu ilə nizamlanmasının birbaşa məsuliyyətini daşıyan ABŞ, Rusiya və Fransanın səfirləri Şuşaya gedərək, Qarabağdakı vəziyyətlə tanış olmağı daha çox istəməli olduqları halda Azərbaycanın təklifini sükutla qarşıladılar. Nəticədə ictimaiyyətin haqlı iradlarına tuş gəldilər. Hərçənd, Azərbaycan ictimaiyyəti Minsk qrupunu təmsil edən 3 səfirin Şuşaya səfər etməməsinə o qədər də təəccüblənmədi. Çünki bu ölkənin Qarabağ məsələsinə baxışı və Ermənistana münasibəti hamıya yaxşı bəllidir.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə deyib ki, ABŞ, Fransa və Rusiya səfirlərinin Şuşaya gəlməməsi Qarabağdakı proseslərin tənzimlənməsində ATƏT-in Minsk qrupunun kənarda qalmasına edilən etiraz formasıdır. Analitik vurğulayıb ki, hər üç həmsədr dövlətin səfərdən imtina etməsi bununla bağlıdır:** "Fransa müharibədən sonrakı prosesdən narazı olduğunu gizlətmir. Türkiyənin regionda aktivliyinin artması, Şuşa Bəyannaməsinin imzalanması rəsmi Parisi narazı salan əsas amillərdir. Müharibə zamanı ABŞ-ın başı prezident seçkisinə qarışdığına görə Cənubi Qafqazdakı olaylara müdaxilə şansı yox idi. Əslində indiki halda Amerikanın Qarabağ prosesinə nə dərəcədə müdaxilə edəcəyi məsələsinin özü müzakirə mövzusudur. Minsk qrupunun nizamlanma prosesindən uzaqlaşdırılması birbaşa Vaşinqtonu da kənarda qoyur. Rusiya üçün isə məsələ bir qədər fərqlidir. Moskva Qarabağ prosesində birbaşa iştirak edən tərəfdir və bölgədə sülhməramlı qüvvələrini yerləşdirib. Həmçinin, Türkiyə-Rusiya Monitorinq Mərkəzi fonunda Ankara ilə birgə hərəkət edir. Lakin Kremli də narahat edən məqamlar mövcuddur. Türkiyə faktoru, Azərbaycan-Türkiyə-Pakistan İttifaqı və Şuşa Bəyannaməsi, Ankaranın Orta Asiya ölkələri ilə sıx təmas qurması Rusiyada təşviş yaradıb. Moskva da bu cür addımla öz mövqeyini sərgiləyib və "narahatlığını" bəyan edib".

**T.Rzayev bildirib ki, ABŞ, Fransa və Rusiya diplomatlarının Şuşada olması müsbət addım olardı:** "Biz xarici ölkələrə, eyniylə həmsədr dövlətlərə həm də onu başa salmağa çalışırıq ki, Azərbaycan Ermənistana nəzərən regionda daha etibarlı, sərfəli, qazanclı tərəfdaşdır. Məncə, "gəlmirlər, cəhənnəmə gəlməsinlər", "onların ayağı Şuşaya dəyməsin" tipli populist açıqlamalardan uzaq olmalıyıq. Proseslərə real yanaşmaq lazımdır. ABŞ, Fransa və Rusiya ilə siyasi, iqtisadi əlaqələrimiz var, hər üç ölkəylə əməkdaşlıq edirik və üç dövlət Azərbaycanın ərazi bütövlüyünü tanıyır. İşğaldan azad olunmuş torpaqlarımıza xarici ölkə nümayəndələrinin səfərlərinin təşkil edilməsi bizim üçün faydalıdır. Məqsədimiz odur ki, diplomatlar erməni vəhşiliyini görsünlər və quruculuq işləriylə tanış olsunlar. Əlbəttə, iradımız rəsmi şəkildə çatdırıla bilər, amma ABŞ kimi ölkələrlə əlaqələri korlamaq bizə xeyir gətirməz. Bir daha təkrar edirəm, bu addımı Minsk qrupunun "etiraz aksiyası" kimi dəyərləndirmək lazımdır".

**İsmayıl Qocayev**



# Türk professor sensasion açıqlama verib

## "Ermənistanın əlində "İsgəndər" var, ruslar yalan deyirlər"

**Üstündən xeyli müddət keçməsinə rəğmən, "İsgəndər- M" məsələsi ilə bağlı müəmma hələ gün üzünə çıxmayıb. Əslində hər kəs, elə biz özümüz də bilirik ki, vəziyyət nə yerdədir.**

Düşmənin axirətədək dəvəquşu kimi başını qumun altında gizlətməsi mümkündür. Amma necə deyərlər, kor-kor, gör-gör...

**Türkiyəli professor, beynəlxalq münasibətlər üzrə ekspert Yaşar Onay aysberqin görünməyən tərəflərini "Şərq"ə izah edib:** "Əlbəttə, ruslar yalan deyirlər. Ümumiyyətlə, onlara güvənmək olmaz. Ermənistanın əlində "İsgəndər" var. Və bu, kifayət qədər təhlükəlidir. O vaxt xüsusilə mülki yerlərin hədəf alınması düşmənin çirkin niyyətindən xəbər verir. Fikrimcə, Moskvaya təsir etmək asan olmayacaq. Çünki onlar göz görəgörə "İsgəndər" məsələsindən boyun qaçırırlar. Həmçinin beynəlxalq hüquq da Kremli maraqlandırmır. Onları düşündürən ancaq gücdür. Rusiya qarşısında əyilməyən, dik dayanan ölkəyə hörmət edir. Ermənistanı forpostu etməsi heç də təsadüfi deyil".

**Kənan**

# Müharibədən sonra regiona maraq artıb

## *Zəngəzur dəhlizinin açılması Avropanın da maraqlarına uyğundur*

"Avropa İttifaqının Cənubi Qafqaz siyasəti post-münaqişə dövrünə əsasən reallaşır". Bu fikirləri siyasi şərhçi Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında bildirib. Onun sözlərinə görə, Qarabağ münaqişəsinə son qoyulması, Avropa İttifaqının regiona diqqətinin artması, xüsusilə Azərbaycanla əlaqələri yeni inkişaf mərhələsinə qaldırmaq strategiyasını ortaya qoyub:

"Avropa İttifaqı ilə Şərq tərəfdaşlığı proqramına uyğun olaraq, yeni əməkdaşlıq məhz post-müharibə dövrünə uyğun olaraq reallaşacaq. Məhz bunu Avropa İttifaqının qonşuluq və genişlənmə üzrə komissarı Oliver Varheyinin qeyd etməsi, göstərir ki, Brüssel artıq münaqişənin bitdiyini qəbul edir. Son bir ay ərzində Avropa İttifaqının rəsmilərinin regiona səfəri, Azərbaycanla əlaqələrə önəm verilməsi, sıx siyasi-iqtisadi inkişaf prosesinin başlanmasına dəlalət edir. İkitərəfli əlaqələrin bu tempdə davam etməsi, qısa bir müddətdə Azərbaycan və Avropa İttifaqı arasında çərçivə sazişinin bağlanmasına gətirib çıxaracaq. Avropa İttifaqı Qafqaz və Mərkəzi Asiyaya açılım etməklə, Çinlə Rusiya üzərindən kənar iqtisadi-siyasi əlaqələri onu etdirəcək. Bu da Azərbaycanın regionda nəqliyyat və logistika habı olaraq İttifaq üçün xüsusi əhəmiyyətini artıracaq. Bu da gələcəkdə ölkəmizə siyasi-iqtisadi dəstəyin verilməsi ilə nəticələnəcək. Avropa İttifaqı məhz Cənubi Qafqazda Rusiyanın mövqeyini zəifləmək, buradan Mərkəzi Asiyaya açılım siyasətini həyata keçirməyi qarşısına məqsəd qoyub. Əfqanıstanda "Taliban"ın hakimiyyətə gəlməsi Avropanın bu siyasətinin qarşısını almayacaq. Yeni dünya nizamı qurulur, beynəlxalq siyasi müstəvidə daşlar yerindən oynayır. Bu da hər bir regional və beynəlxalq gücün öz tərəfdaş seçməsinə, iqtisadi və logistika yollarına nəzarət etməsinə gətirib çıxarır. Bu xüsusda Avropanın şansı daha da yüksək görünür".



**Siyasi şərhçinin sözlərinə görə, Avropa İttifaqının bu siyasəti daha da çevik, regionda real sülhün əldə edilməsinə töhfə verə bilər:** "Xüsusilə Ermənistanda N.Paşinyan hakimiyyəti ilə sıx əməkdaşlıq formatı çərçivəsində Brüssel Ermənistanı 10 noyabr və 11 yanvar razılaşmalarına əməl edilməsini təşviq edə bilər. Çünki Zəngəzur dəhlizinin açılması Avropanın da maraqlarına uyğundur. Azərbaycanla Ermənistan arasında əlaqələrin bərpası, məhz Avropa İttifaqının strateji maraqlarına cavab verir. Ona görə də ardarda Avropa rəsmilərinin səfərləri buna dəlalət edir. Azərbaycanda Avropa İttifaqı ilə sıx əməkdaşlığı inkişaf etdirməklə, Rusiyanın və ABŞ-ın gündəmə daşıdığı Minsk qrupunun fəaliyyətinə, həmçinin onların iddia etdiyi "status" məsələsini neytrallaşdıra bilər. Avropa İttifaqı münaqişənin yenidən qızışdırılmasında maraqlı deyil. Ona görə də rəsmi Bakı İttifaqla çərçivə sazişinin bağlanmasını gecikdirməməli və Brüsseli Zəngəzur dəhlizinin açılması istiqamətində proseslərə cəlb etməlidir".

**Aynurə Pənahqızı**

# Siyasətin "kirli oyunları" dəyişməlidir



**Azər Qasımov: "Yeni dövrün tələbi yeni düşüncəli, siyasi mədəniyyəti, intellektual səviyyəsi yüksək olan siyasətçilərin dövrü olmalıdır"**

Ötən gün Milli Məclisin keçirilən iclasında deputat Razi Nurullayev maraqlı fikir səsləndirib. Deputat təklif edib ki, yeni siyasi qüvvələr güclənməli və siyasi mədəniyyət formalaşmalıdır. O həmçinin diqqətə çatdırıb ki, bu günləri bütün dünyada hər kəs güclə, intellektlə, məntiqlə hesablaşır. Deputat indi intellekt və siyasi mədəniyyət zamanı olduğunu vurğulayıb.

**Təkliflə bağlı fikirlərini "Şərq"ə dəyərləndirən BAXCP sədrinin müavini, politoloq Azər Qasımov deyib ki, ölkədə uzun illər mövcud olan siyasi mədəniyyət hər zaman daha yaxşı olmasını arzu etdiyimiz formada olub:** "Siyasətçi olmaq əksər hallarda şəxsi mənafe və maddiyyat baxımından gəlir mənbəyi hesab edilib. Belə olan halda da siyasi mədəniyyət anlayışı qarşılıqlı maraqların toqquşması nəticəsində həddən artıq aşağı səviyyəyə düşüb. Belə siyasətçi hesab olunan insanlar siyasətin "kirli oyunlar" olduğu gerçəyinə özlərini o qədər inandırıblar ki, bunu özlərinə sanki peşə seçiblər. Təbii ki, siyasətçilərin hamısına bunu şamil etmək olmaz. Siyasətçilər arasında kifayət qədər dövlətə, xalqa bağlı insanlar da vardır. Yeni dövrün tələbi yeni düşüncəli, siyasi mədəniyyəti, intellektual səviyyəsi yüksək olan siyasətçilərin dövrü olmalıdır. Deputat Razi Nurullayevin fikri ilə tamamilə razıyam. Hesab edirəm ki, istər yeni, istərsə də uzun illər siyasətlə məşğul olan siyasətçilər zamanın tələbinə uyğunlaşmağı bacarmalıdırlar. Bu, onların siyasi əqidəsinin dəyişməsi kimi başa düşülməməlidir".

**A.Qasımov əlavə edib ki, zamanın tələbi əgər siyasi mədəniyyət, intellekt yüksəkliyi tələb edirsə, siyasətçi bu keyfiyyətlərini korrektə etməyi bacarmalıdır:** "Bunu bacaran siyasətçi hesab edirəm ki, xalqın nəzərində hər zaman yüksək mövqedə olacaqdır. Siyasətçi öz fəaliyyəti ilə xalqa mesaj verməlidir ki, o, daim inkişafdadır. Əks halda belə mesajı verə bilmirsə, siyasətdən getməlidir. Yeni fikirli siyasi qüvvələrə həqiqətən də dövlətin və xalqın ehtiyacı var".

**Aynurə Pənahqızı**



## Metropolitendə dil normaları pozulur

### Bunu akademik də təsdiqləyir

**Metro qatarlarında müxtəlif maarifləndirici şüarlar diqqət çəkir. Çox gözəl! Amma dilin elastikliyi, normaları niyə pozulmalıdır?! Məsələn, hər gün dəfələrlə gördüyümüz, oxuduğumuz şüara diqqət edək:**

"Unutmayın ki, koronavirus alacağınız tədbirlərdən güclü deyil". Lap yaxşı! Unutmarıq. Lakin siz də unutmayın ki, əziz səlahiyyətli şəxslər, dil hər bir xalqın milli sərvətidir və onu korlamaq olmaz:

Azərbaycan dilinin normalarına uyğun olaraq tədbir haqqında "almaq" yox, "görmək" feili işlənir. Yəni həmin cümlədə ifadə belə olmalı idi: "Görəcəyiniz tədbirlərdən". Bunu altıncı sinif şagirdi də bilir.

**Akademik Möhsün Nağısoy neqativ hal barədə "Şərq"ə danışıb:** "Əlbəttə, ifadə düzgün deyil. Mütləq "Görəcəyiniz tədbirlərdən" olmalı idi. Bu işlərlə monitorinq mərkəzi məşğul olmalı, iradlarını bildirməlidir. Təəssüf ki, bizim təsir mexanizmimiz yoxdur. Ona görə də ən yaxşı halda təklif verə bilərik".

**Kənan**

# Tovuz döyüşləri Azərbaycanın şanlı səhifəsidir

### "İndi bütün şəhidlərimizin ruhları şaddır"




Tovuz döyüşlərindən 1 il ötür. 2020-ci il iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistanın silahlı qüvvələrinin bölmələri Tovuz rayonu istiqamətində mövqeləri ələ keçirmək məqsədi ilə atəşkəs rejimini kobud şəkildə pozaraq gərginliyi artırmaq məqsədilə növbəti hərbi təxribat törətmişdilər. Bir neçə gün davam edən döyüşlər zamanı hücum cəhdinin qarşısı alınıb, düşmənə sarsıdıcı zərbələr endirilib.

Ordumuzun gördüyü cavab tədbirləri nəticəsində böyük itki verən düşmən geri çəkilməyə məcbur edilib. Ordumuz düşmənin 100-ə qədər canlı qüvvəsini, çoxlu sayda hərbi texnikasını və mühüm obyektlərini məhv edib.

Döyüşlər zamanı general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov, baş leytenant Rəşad Mahmudov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev, müddətdən artıq hərbi xidmət qulluqçuları - əsgər Elçin Mustafazadə, çavuş Vüqar Sadıqov, əsgər Nazim İsmayılov, baş əsgər Elşad Məmmədov və əsgər Xəyyam Daşdəmirov düşmənlə döyüşlərdə qəhrəmancasına şəhid olub.

Hər kəsə məlumdur ki, Ermənistanın hərbi təxribatları Azərbaycanın şanlı qələbəsi ilə bitən 44 günlük müharibəyə gətirdi. Məhz Tovuz hadisələrinin yaşanması ilə bütün cəmiyyətimiz ayağa qalxdı, sanki bir oyanış baş verdi və 44 günlük müharibədəki qələbəmizə zəmin yarandı.

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Şərq"ə söyləyib ki, Tovuz hadisələri bizim üçün çox vacib və şanlı səhifədir:** "Sanki Tovuz hadisələri bardağı daşıran son damla oldu. Cəbhə bölgəsində olan hadisələr, əsgərlərimizin şəhid olması, qəhrəmancasına döyüşməsi 44 günlük müharibəyə gətirib çıxardı. Hələ Birinci Qarabağ müharibəsindən sonra atəşkəs dövründə çoxsaylı şəhidlər vermişdik. Ermənistan daim atəşkəsi pozurdu. Azərbaycan xalqı Tovuz hadisələri başlayandan sonra keçənilki qələbə üçün böyük zəhmətlər göstərdi. İnanırıq ki, indi bütün şəhidlərimizin ruhları şaddır. Çünki qazandığımız qələbələri görüb sevinirlər".

**Yeganə Bayramova**



**Artıq bir neçə gündür ki, sosial şəbəkələrdə şəhid ailələrindən pul alaraq, övladları haqqında süjet, məqalə hazırlayan bir qrup şəxs haqqında xəbərlər tirajlanır.**

İddia olunur ki, özünü jurnalist kimi təqdim edən həmin şəxslər rayonları, kəndləri gəzərək şəhid ailələrinin evlərinə yollanır, şəhidlərimizlə bağlı çəkiliş edirlər. Qarşılığında isə müəyyən məbləğdə pul tələb edirlər. Sosial mediada həmin "jurnalist"lərin qurbanı olan şəhid ailələrinin siyahısı da yayılıb.

**Mövzu barədə "Şərq"ə danışan tanınmış media eksperti, professor Qulu Məhərrəmli bildirib ki, reket və jurnalistika anlayışları bir-birinə ziddir.** Onun sözlərinə görə, "reket" jurnalistikası ilə hüquq-mühafizə orqanları məşğul olmalıdır: "İstənilən qanun pozuntusu, o cümlədən də medianın, redaksiyanın adından sui-istifadə edib pul "qopartmaq", kimisə şantaj etmək cinayət əməlidir. Ona görə də bununla xüsusi orqanlar məşğul olmalı və effektiv nəticə əldə edilməlidir. Mətbuat Şurasında da "reket" jurnalistika ilə mübarizə komissiyası yaradılmışdı. Hesab edirəm ki, bu, effektsiz bir şeydir. Mübarizə ona görə effekt vermir ki, üsullar yanlışdır. Elə nümunələr və metodlar tətbiq olunmalıdır ki, "reketlər" bu hərəkətlərindən çəkinsinlər. Daha çox məmurlar, vəzifə sahibləri şantaja məruz qalırlar. Onlar da çox vaxt sərt tədbirlər tətbiq olunmasından çəkindikləri üçün adlarının hallanmasını istəmirlər. Hesab edirəm ki, heç nədən qorxmadan, çəkinmədən həmin adamları ifşa etmək lazımdır ki, təkcə jurnalistikanın deyil, hüquq-mühafizə orqanlarının da adına xələl gəlməsin".

# Şəhid ailəsindən pul almaq ən böyük mənəviyyatsızlıqdır

### "Onlar bu cəmiyyətin qara yaralarıdır, dərhal aşkar olunub, ifşa edilməlidir"

*Q.Məhərrəmli şəhid ailələrindən pul alan bəzi "jurnalistlər"in olması haqda da danışıb. O bildirib ki, bunu etmək mənəviyyatsızlıqdır:* "Şəhid məsələsi bizim cəmiyyətin ən ağrılı yeridir. Mənəviyyatsızlıq o həddə çatmalıdır ki, övladlarının həyatını işıqlandırmaq üçün gedib şəhid ailəsindən pul alasan. Hesab edirəm ki, bu, daha böyük cinayətdir. Belə adamlar dərhal aşkar olunmalıdır. Onlar bu cəmiyyətin qara yaralarıdır və həmin şəxslərdən təcrid olunmaq çox önəmlidir. Şəhid ailələri də bu məsələdə ayıq olmalıdırlar. Bilməlidirlər ki, heç bir dürüst insan onlardan bu məqsədlər üçün pul istəyə bilməz. İşimiz ona yönəlib ki, şəhid ailələrinə kömək edək. Xəbər saytları, televiziyaların şəhid ailələri ilə bağlı materiallar verdiklərini görürəm. Bu, bir tərəfdən onların borcu, digər tərəfdən vətənə, dövlətə xidmət işidir. Ona görə, həmin ailələri məlumatlandırmaq lazımdır ki, belə məsələlərdə həddən artıq ayıq olsunlar. Heç bir halda bu tip davaranışlara yol verməli olmaz. Çünki o cür addımların atılması hər iki tərəfdən şəhidlərin adının üstünə kölgə salmaqdır. Onlar bizim üçün müqəddəsdirlər. Ona görə onların adı ilə hər hansı qanunazidd hərəkət pislənməlidir".

**Yeganə Bayramova**

# Türk professor müjdəni verdi

## "Delta"ya yoluxanlar arasında ölüm halları azdır, bu, çox önəmlidir"



**"Qurban bayramından sonra fövqəladə bir hal baş verməsə, avqust ayının sonuna doğru günlük yoluxma və ölüm sayları lap azalacaq"**



Səhiyyə Nazirliyinin Elmi Şurasının üzvü "2 doza peyvənd olunanların sayı artdıqca yoluxma sayında azalma müşahidə ediləcək. Lakin koronavirus pandemiyası davam etdikcə, tədbiri əldən verməmək, tibbi maskaları çətir kimi hazır tutmalıyıq" dedi.

*"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, bu fikirlər Türkiyə Səhiyyə Bakanlığı Bilim Kurulu üzvü, professor-doktor Mustafa Nəcmi İlhana məxsusdur. Eyni zamanda Qazi Universiteti Tibb fakültəsinin dekanı olan M.N.İlhan bildirib ki, koronavirusa yoluxma və virusdan ölüm hallarının sayındakı azalma məhz peyvəndləmədəki irəliləyişlə bağlıdır:*

"Peyvəndləmə olmasaydı, indi biz ötənilki vəziyyətin eynisini yaşayacaqdıq. Bu da statistikada daha yüksək rəqəmlərə gətirib çıxara bilərdi. Qurban bayramından sonra fövqəladə bir hal baş verməsə, avqust ayının sonuna doğru günlük yoluxma və ölüm sayları lap azalacaq. 2 dozada peyvənd olunanların sayı artdıqca, yoluxma sayı da nəzərə çarpan dərəcədə azalacaq. Lakin koronavirus davam etdikcə, tədbirli olmağımız gərəkdir, ehtiyatı əldən verməməli və tibbi maskaları çətir kimi cibimizdə hazır tutmalıyıq. Məsələn, AVM-ə getdik, insanların sıx toplaşdığı yerlərə getdik və ya metroya mindiksə, maskaları taxmalıyıq, ordan çıxdıqdan sonra çıxarmalıyıq. Vətəndaşlar bunu bilməlidir ki, peyvənd olunsalar belə, təkrar yoluxmamaq üçün kütləvi yerlərdə tibbi maskadan istifadə şərtdir".

**Professor "Covid-19"-un "Delta" və "Delta-plus" variantlarının varlığına da toxunub:**

"Mən əvvəl də demişdim ki, əgər hər hansı bir bölgədə virusun yeni variantına rast gəlinirsə, mütləq digər bölgələrdə də olacaq. Yoluxuculuq faizi yüksək olan variantlar bir müddət sonra hakim mövqe əldə edir. Burada əsas, yeni variantın öldürücülüyünün artıb-artmamasıdır. Hazırda "Delta" variantına yoluxmuş insanlarla yoluxmamış insanlar arasındakı ölüm faizində bir fərq yoxdur. "Delta"ya yoluxanlar arasında ölüm halları azdır. Bu, çox önəmlidir. Çünki viruslar əsasən 2 növ mutasiyaya uğrayırlar: yoluxuculuğun artması və ya azalması, həmçinin öldürücülüyün artması və ya azalması. Hazırda öldürücülüyü artmış bir virus mövzusu deyil. Müsbət cəhət budur ki, yeni variantın yoluxuculuq xüsusiyyəti dəyişməyib. Yoluxma yolu dəyişmədiyi kimi, ondan qorunma yolları da dəyişməyib. Peyvənd olunacağıq, kütləvi yerlərdə olmaqdan çəkinəcəyik, tibbi maskalardan istifadə edəcəyik.

**Məlahət Rzayeva**



# Tələbələrə qəti tələb qoyulmayıb

## Sadəcə, ola bilsin, COVİD pasportu olmayanlar üçün dərslər distant qaydada keçilsin

**Ölkədə koronavirusla mübarizə davam edir. Yoluxanların sayının yenidən artmasına rəğmən, vaksinləşmə prosesi də sürətlə gedir.**

Və bu, müxtəlif fikirlər ortaya qoyur. Müəyyən iddialara görə, yeni tədris ilindən etibarən tələbələrdən vaksin pasportu tələb olunacaq. Bunun nə qədər ədalətli olduğu isə dartışılır...

**Təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında məsələyə aydınlıq gətirib:** "Vaksinləşmə məcburi deyil. Amma məsələ ondan ibarətdir ki, sentyabrdan etibarən əyani tədrisdə iştirak edənlər daşıyıcı olmadıqlarını sübut etməlidirlər. Ali məktəblər peyvəndləmə ilə bağlı tələb qoymur. Sadəcə, ola bilsin, COVİD pasportu olmayanlar üçün dərslər distant qaydada keçilsin. Hər halda hələlik qəti qərar yoxdur. Universitetlər daxili nizamnamələrinə uyğun olaraq, fərdi qərar verə bilərlər".

**Kənan**



# Biletlər bahadır, inhisarçılıq davam edir

## Bu qədər narazılıqdan sonra AZAL yenə dəyişmir

**"Ölkədə AZAL-ı tənqid etməyən təkcə Cahangir Əsgərov qalıb, amma yenə də heç bir dəyişiklik yoxdur. Biletlər bahadır, inhisarçılıq davam edir".**

**Bunu iqtisadçı-ekspert Natiq Cəfərli deyib. Ekspert bildirib ki, heç olmasa, ölkə daxilində rəqabətli mühit yaradılmalıdır ki, AZAL qiymətləri endirməyə məcbur olsun:** "Bunu necə etmək olar?! Çox sadə. Məsələn, Lənkəran Hava Limanının tikintisinə 51,5 milyon dollar pul xərclənib. Hava limanı isə demək olar ki, çalışmır. Hər il hava limanının kommunal xərclərinə və işçilərin maaşına 5 milyon manata yaxın pul xərclənir. 2008-dən bəri limanın xərcləri az qala tikintiyə xərclənən qədər olub. Lənkəran Hava Limanın AZAL-ın idarəçiliyindən tam çıxarılaraq xarici şirkətlərdən birinə verilməlidir. Ən vacibi isə uçuşların təşkili və icazələrin verilməsi AZAL-dan alınmalıdır. Rəhbərliyin uçuş cədvəlinə və təşkilinə heç bir müdaxiləsi olmamalıdır. Nəticədə Lənkəran Hava Limanına bir neçə şirkət cəlb oluna bilər. İlkin mərhələdə Türkiyəyə, Rusiyaya, Ukraynaya uçuşlar təşkil edilər. Qiymətlər Bakı Hava Limanından ən azı iki dəfə ucuz olar. Bundan sonra AZAL Bakıdan uçuşlarda müştərilərinin kəskin azaldığını görüb məcburən qiymətləri endirəcək".

**N.Cəfərli bəyan edib ki, eyni yanaşmanı Qəbələ, Gəncə, Zaqatala, payızda açılacaq Füzuli Hava Limanlarında da təşkil etmək olar:** "Bu yolla regionlarda tikilən, büdcədən ayrılan milyonlarla manata başa gələn, uzun illərdir boş, işsiz qalan hava limanlarını iqtisadiyyatımıza qazandırmış olarıq".

**İsmayıl**

# COVİD pasportu ciddi müzakirəyə çıxarılmalıdır

## "Peyvənd olunmayan adamların toya buraxılmaması ədalətli qərar deyil"




Ötən gün Milli Məclisin keçirilən iclasında deputat Nigar Arpadarai COVİD pasportu ilə bağlı ciddi müzakirələrə ehtiyacın olduğunu deyib. O qeyd edib ki, COVİD pasportlarının tətbiqinin müzakirələrdən kənar qalması təəssüf doğurur.

Çünki bunun tətbiqi uzunmüddətli qərardır və vətəndaşların həyatına birbaşa təsiri var. N.Arpadarai həmçinin diqqətə çatdırıb ki, hazırda xroniki xəstəlikləri, allergiyası olan, yaxud şəxsi qərarı ilə peyvənd olunmayanlar sağlamlıq mərkəzlərinə girə bilmirlər.

**Mövzu ilə bağlı Jurnalist Araşdırmaları Mərkəzinin rəhbəri, media eksperti Seymur Verdizadə "Şərq"ə fikirlərini bölüşüb.** O, açıqlamasında diqqətə çatdırıb ki, ilk növbədə insanların peyvənd olunmasının tərəfdarıdır: "Bu, həmin insan üçün vacibdir. Həm də bizə lazımdır. Ətrafımızda olan hər kəsin peyvənd olunması yoluxma riskini minimuma endirir. Hazırda yoluxma sayının azalması bizdə arxayınçılıq yaratmamalıdır. Vaksinasiya prosesinə marağı artırmaq, təbliğat işini gücləndirmək lazımdır. Hələlik virusdan qorunmağın yeganə yolu vaksin vurdurmaqdır. Bir halda ki, tibb elmi başqa çıxış yolu tapmayıb, biz hamılıqla bunu etməliyik. Əlbəttə, səhhətinə görə vaksin vurdurmayan insanlar da var. Kiminsə peyvənd olunmaması onun cəmiyyətdən təcrid olunmasına gətirib çıxarmamalıdır. Bu, insan hüquqlarının kobud şəkildə pozulması deməkdir. Bəs nə etməli? Məncə, çıxış yolu tapılmalıdır".

*S.Verdizadə əlavə edib ki, səhhətindəki problemlə əlaqədar peyvənd olunmayan adamların toya buraxılmaması ədalətli qərar deyil:* "Hesab edirəm ki, həmin şəxslər ayda bir dəfə dövlət hesabına koronavirus testindən keçməlidirlər. Əgər vətəndaşın test cavabı onun yoluxmadığını təsdiq edirsə, bütün qapıları həmin şəxsin üzünə açmaq lazımdır. Bəlkə də daha yaxşı variantlar var, amma mən bilmirəm. Bu işi bilməli, görməli olan adamlar mütləq çıxış yolu tapmalıdırlar. Biz cəngəllikdə yaşamırıq ki, güclülər, sağlamlar xəstələri, zəifləri sıradan çıxarsın".

**Aynurə Pənahqızı**

# Sabah çox gec olacaq

## Cəmiyyət özü narkomaniya ilə ciddi mübarizəyə başlamalıdır




**Bu insanlar islah olunmayıb, özlərini zəhərləməklə kifayətlənmir, hörümçək toru kimi şəbəkə yaradıb zəhəri cəmiyyətə yayırlar**

Qonşuluqda ailə yaşayır. Tipik Azərbaycan ailəsi: ata, ana, 3 övlad. 3-ü də oğlan. "İlk baxışda normal bir ailədir", filan¸ deməyə artıq ehtiyac yoxdur, çünki bütün qonşular oğlanlardan birinin narkotik maddə aludəçisi olduğunu ilərdir ki, bilir. O evdə ailə dramı yaşanır. Aludəçi oğlan, texnikumda təhsil aldığı vaxt bir qızla tanış oldu, qolundan tutdu, gətirdi evə ki evlənirəm. Valideynləri də həyatda özünü müsbət mənada təsdiqləməmiş oğullarına toy etdilər. Halbuki, evlənməmişdən də bu oğlanın "az aşın duzu" olmadığı məlum idi. Oğlan evləndisə də, gözəl bir qız övladı dünyaya gəldisə də, şakərindən əl çəkmədi. Ailədə daim söz-söhbət.

Həyat yoldaşı gah atasının evinə gedir, bir müddət sonra əlacsız qalıb qayıdırdı. Qonşulardan kiminin həyətindən, evindən bir əşya oğurlanırdısa, hamı əminliklə məhz o oğlanın "işi" olduğunu deyirdi. Belə də deyirdilər: "vaxtı" gələndə, dəliyə dönür də, ata-ana da tanımır, pul axtarır ki, zəhrimarı alıb vursun. Pul da yox, onun-bunun həyətinə girib oğurluq edir". Təsəvvür edin ki, evlərin qarşısında dayanmış avtomobilləri günün günorta çağı soyurdu bu adam. Qonşular vəziyyətə bələd olduqlarından avtomobillərini qapıda saxlamaqdan çəkinirdilər, gələn qonaqları da xəbərdar edirdilər. Valideynləri, bir çox digər valideynlər kimi dəfələrlə övladlarını öz əlləri ilə polisə təslim edirdilər, bir neçə gündən sonra qayıdıb gəlirdi, yenə öz "işinə" davam edirdi. Belə param-parça bir həyat. Onu sahə müvəkkili də yaxşı tanıyır, polis şöbəsinin əməkdaşları da. Son vaxtlar, deyirlər, biləyinə elektron qolbaq taxılıb. Nəzarətdə olsun deyə. Bilmirəm, elektron qolbağın faydası, yoxsa qonşular daha ayıq-sayıqdılar, son zamanlar həyətlərdən, mənzillərdən oğurluq edilmir. Daimi olsun, təki.

Milli Məclisdə deputat Bəhruz Məhərrəmov patı təhlükəsindən danışanda, ardınca da Daxili işlər naziri Vilayət Eyvazov "narkotiklərin ölkəyə gətirilməsi cəhdləri çoxalıb" deyəndə bu oğlanın timsalında neçə-neçə gəncimizin həyatın dibinə endiyi acı həqiqət kimi göz önündə canlandı.

**Nazir də təhlükənin miqyasını göstərdi**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin məlumatında bildirilir ki, DİN-də 2021-ci ilin birinci yarısında cinayətkarlıqla mübarizə, asayişin qorunması və təhlükəsizliyin təmini sahəsində fəaliyyətin nəticələri və qarşıda duran vəzifələrə həsr olunmuş videokonfrans formatında Kollegiya iclası keçirilib. İclasda nazir, general-polkovnik Vilayət Eyvazov bir çox məsələlərdən, o cümlədən cinayətkarlıqla mübarizə tədbirlərindən danışıb və qeyd edib ki, ötən ilin 6 ayı ilə müqayisədə qeyri-leqal dövriyyədən 776 kiloqram çox və ya 1 ton 843 kiloqram narkotik vasitə çıxarılıb, qanunsuz kultivasiya olunan 140 ton narkotik xassəli bitki aşkarlanaraq məhv edilib. Ayrıca olaraq narkotiklərlə mübarizənin vəziyyətinə toxunan nazir V.Eyvazov qanunsuz dövriyyədən çıxarılan narkotiklərin həcminin ilbəil artması ilə bərabər ölkəyə gətirilməsinə edilən cəhdlərin çoxaldığını, belə bir vəziyyətin gənclərin narkotik aludəçisi olmaq təhlükəsini artırdığını bildirib.

**"Şüşə", yaxud "patı" deyilən maddənin istifadəsi o qədər adiləşib ki..."**

"Məni narahat edən digər məqam, Azərbaycanda ucuz hər kəs üçün əlçatan olduğu üçün daha təhlükəli olan narkotik vasitələrin yayılması ilə bağlıdır". Bu isə deputat Bəhruz Məhərrəmovun parlamentdə çıxışındandır. Deputat çıxışında qeyd edib ki, bu gün gənclər arasında "şüşə", yaxud "patı" deyilən maddənin istifadəsi o qədər adiləşib ki, insan özü təəccüb qalır: Mən dövlət strukturlarını qınamaq istəmirəm, əllərindən gələni edirlər, lakin məsələ köklü həll edilməlidir. Biz hər dəfə cinayətkarları tuturuq, məsuliyyətə cəlb edirik, sonra ekstradisiya olunur, ordan da açıb buraxırlar azadlığa. Bax bu qədər cinayətkar necə olur öz sərhədini rahat keçə bilir? Niyə bir dəfə biri öz ölkəsinin sərhədini keçərkən, Azərbaycana narkotik maddə gətirməyə cəhd etdiyinə görə saxlamır? Bütün bunlar deməyə əsas verir ki, etsək etsək, bu problemi elə özümüz həll edə bilərik, kimdənsə mədət gözləməyə dəyməz". Deputat əlavə edib ki, düzdür, cəzanı sərtləşdirmək həmişə effekt vermir, amma biz digər tədbirlər fonunda cinayət qanunvericiliyində 234-cü maddəni, habelə, narkotik vasitələrin istehlakına təhrik etməyə görə sanksiyaları çox ciddi formada sərtləşdirilməliyik ki, Azərbaycan narkotik alverçisi, narkotik təminatçısı olan istənilən əcnəbi, yaxud vətəndaş üçün qorxulu bir hüquqi zonaya çevrilsin.

> *Təcrübə göstərir ki, imkanlı şəxslərlə yanaşı, həm də işsiz, yoxsul gənclər narkomaniyaya meyil edirlər. Buna görə də dövlət gənclərin məşğulluğunun qeydinə qalmalıdır...*

**Yollar da, üsullar da müxtəlifdir**

Millət vəkilinin söylədikləri həqiqətdir. Eyni zamanda narkotik maddə həm də ölkə daxilində becərilir və satılır. Üzərində narkotik maddə aşkarlanan şəxslər, həyətyanı sahələrdə becərilən narkotik tərkibli bitkilərin məhv edilməsinə dair məlumatlar vaxtaşırı ictimaiyyətə açıqlanır. Əkib-becərənlər, satanlar arasında məhkumluq həyatı yaşamış şəxslər də var. Demək, bu insanlar islah olunmayıb, özlərini zəhərləməklə kifayətlənmir, hörümçək toru kimi şəbəkə yaradıb zəhəri cəmiyyətə yayırlar. Həm nazirin, həm də millət vəkili Bəhruz Məhərrəmovun xatırlatdığımız çıxışı "ölkədə narkotik maddələr necə yayılır" sualının cavabıdır. Sadə, lakin qorxunc cavab: xarici ölkələrdən, qanunsuz şəkildə, qaçaqmalçılıq yoluyla ölkəyə gətirilir, ölkə daxilində əkilib-becərilir, sosial şəbəkə üzərindən reklam olunur - müxtəlif videolar, hətta musiqi, mahnı janrında paylaşımlarla, həmçinin onlayn satış vasitəsilə. Görünür, məhz bu faktları nəzərə alaraq nazir V.Eyvazov çıxışı zamanı bu məsələdə cəmiyyətin yetkin təbəqəsinə, sağlam düşüncəli hər bir vətəndaşa güvəndiyini, mediadan, sosial şəbəkələrin aktiv istifadəçilərindən, o cümlədən blogerlərdən daha böyük fəallıq gözləntilərinin olduğunu qeyd edib.

**Uşaqlara məşğuliyyət verək, narkotikdən imtina etsinlər**

**"Təmiz Dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova "Şərq"ə açıqlamasında qeyd etdi ki, narkotiklərlə mübarizədə bütün cəmiyyət iştirak etməlidir:**

- Valideynin polisə zəng edib övladını tutdurmasıyla nəticə əldə etmək mümkün olmayacaq. Mövcud qanunvericilik narkotik maddə istifadəçisinin məsuliyyətə cəlb edilməsinə hüquqi əsas vermir. Valideynlər övladlarını polisə tutdurmaqdansa, narkotik maddəni kimdən, haradan satın aldığını bilməlidirlər. Polis də narkotik maddə asılılığı olan şəxsdən bu məlumatı əldə etməyə çalışmalıdır. Bu yolla narkotik maddələrin ticarətinin qarşısı müəyyən qədər alına bilər. Yoxsa ki, narkotik maddə istifadəçisini tutub 2-3 gün şöbədə saxlamaqla heç nəyə nail olmayacağıq. Əsas, satanlar tutulmalıdır. Sosial şəbəkələr üzərindən satış həyata keçirilir. Bu şəxslər aşkarlanmalıdır. Uşaqlara nəzarət mexanizmi olmalıdır. Uşaqların, yeniyetmələrin asudə vaxtının, məşğuliyyətlərinin təşkili vacibdir. Biz sığınacağı tərk edən analardan soruşuruq, burdan gedirsiniz, uşağa nəzarət edə biləcəksinizmi? Çoxu bildirir ki, işləyəcək. İş saatı ərzində uşaq necə olacaq, kim baxacaq, bilinmir. Bu məsələlər həllini gözləyən problemlərdir. İşləyən anaların övladlarının asudə vaxtının səmərəli keçirilməsi üçün xüsusi layihələr icra olunmalıdır. Əmək və Əhalinin Sosial Təminatı Nazirliyinin nəzdində "Günərzi" mərkəzi yaradıldı. Amma hazırda mərkəz işləmir, fəaliyyət göstərmir. Belə mərkəzlər daim fəaliyyətdə olmalı və sayları çoxalmalıdır. Yeniyetmələrin ideoloji tərbiyəsinin düzgün istiqamətdə aparılması vacibdir. Uşaqlar, yeniyetmələr bəzən ümidsizliyə qapılır, potensiallarını, bacarıqlarını realize edə bilmir. Kənardan bir nəfər də narkotik maddə təklif edəndə ona tabe olurlar. Başqa məşğuliyyət yoxdur çünki. Uşaqların, yeniyetmələrin maraq dairəsinə uyğun, onlara öz bacarıqlarını nümayiş etdirmək imkanı verən layihələr, yarışlar, müsabiqələr təşkil edilməlidir. Bizə dövrə, mövcud duruma uyğun dəyişən çevik sosial siyasət lazımdır. Bununla biz uşaqlarımızı, gəncləri xilas edə bilərik. M.Zeynalova narkomaniyaya qarşı hazırlanan sosial reklamlara da toxundu:

- Hazırda bu səpkili sosial çarxlar çoxdur. Lakin reklamların məzmunu ciddi araşdırılmalıdır ki, bunlar cəlbedici, yoxsa itələyici effektə malikdir. Bəzən reklam çarxında qara çərçivədə verilən "narkotik!" ifadəsi daha çox cəlbedici görünür, nəinki aşağıda qeyd edilən "həyatını söndürmə!" ifadəsi. Sosial reklamların təsir effekti yoxlanmalıdır.

**Pessimizmə qapılanları xilas etməliyik**

**"Yeni sabah" informasiya saytının baş redaktoru, jurnalist Seymur Verdizadə "Şərq"ə açıqlamasında narkomaniya ilə təkcə hüquq-mühafizə orqanlarının deyil, cəmiyyətin bütün təbəqələrinin mübarizə aparmalı olduğunu dedi:**

- Təcrübə göstərir ki, imkanlı şəxslərlə yanaşı, həm də işsiz, yoxsul gənclər narkomaniyaya meyil edirlər. Buna görə də dövlət gənclərin məşğulluğunun qeydinə qalmalıdır. Yeni iş yerlərinin açılmasına çalışmaq, bunu prioritet vəzifə elan etmək lazımdır. İşsiz, cibində 1 qara qəpiyi olmayan adamlar istər-istəməz əyri yola düşəcək, oğurluq edəcək, daha asan pul qazanmaq haqda düşünəcək. Buna görə də gənclərin öz bacarıqları hesabına pul qazanmasına şərait yaradılmalıdır. Dövlət qurumlarındakı vakant yerlər gizlədilməməli, ehtiyacı olanların ixtiyarına verilməlidir. İctimai qınaq gücləndirilməlidir. Bu cür yaramaz əməllərə görə "içəri" düşən adamların azadlığa gedən yolu uzun olmalıdır. Əmələ adekvat cəza olmalıdır. Narkotik maddələrin satışına görə həbs olunan şəxslərin cəzalarının azaldılmasına, yaxud hansısa yüngülləşdirici səbəblərlə əfv edilməsinə yol verilməməlidir. İnsanlar bu əməlin cəzasının ağır olduğunu anlamalı, bu işdən çəkinməlidirlər. Cəmiyyətdə sağlam rəqabət mühiti olmalıdır. Heç bir gənc "onsuz da atamın pulu yoxdur, qabağa gedə bilməyəcəm", düşüncəsi ilə hərəkət etməməlidir. Bu cür pessimizm insanlarda xəyal qırıqlığı yaradır, onları yarıqapalı həyata sürükləyir. "Arxalı"lar, pullular deyil, savadlı, qabiliyyətli gənclər önə çəkilməlidir. Hesab edirəm ki, ədalətli cəmiyyət qurmaqla gənclərimizin daha faydalı işlərlə məşğul olmasını sürətləndirə bilərik.

**Məlahət Rzayeva**

# Fırtına öncəsi səssizlik?



Kənan Novruzov

Ermənilərin Gədəbəy istiqamətində atəşkəsi pozması Nikol Paşinyanın hakimiyyətini bərpa etdikdən sonra sayını itirdiyimiz növbəti təxribatdır. Provokasiyalar ard-arda olur: Hadrutda, Qazaxda, Ağdamda, Gədəbəydə... İki variant var: ya Paşinyan yenidən baş nazir seçildikdən sonra yerini möhkəmləndirdiyini düşünüb "şıltaqlıq edir", ya da revanşistlər, o cümlədən "Qarabağ klanı" nümayəndələri Robert Koçaryanla Serj Sarkisyan çevriliş üçün zəmin yaradır, daxili narazılıq formalaşdırırlar.

Bütün idarəçiliyin Paşinyanın əlində olmadığını, hərbçilərin narazılığını nəzərə alsaq, ikinci versiya daha real görünür.

Bu əsnada Paşinyanın tələm-tələsik, sanki ocaq üstündə yeməyi qalıbmış kimi Moskvaya səfəri də diqqət çəkir. Yenə ehtimallar üzərindən çıxış edək. Ola bilsin, onu Putin çağırıb və gələcək siyasi fəaliyyəti ilə bağlı müəyyən tapşırıqlar verib, "radar"ları göstərib. Çox güman, sərhəddəki təxribatlar barədə danışıblar. Putin və Paşinyanın sərhəddəki rus sülhməramlılarının sayını artırmaqdan ötrü belə bir senariyə əl atmaları istisna deyil. Yəni ki, guya, sülhməramlıların sayı çox olsa oxşar insidentlər yaşanmayacaq. Sülhməramlı da sülhməramlı ola da...*(Əslində onlar öz vəzifələrinin öhdəsindən layiqincə gəlsələr ermənilər bir güllə də ata bilməzlər).*

İkinci bir tərəfdən təxribatlar vasitəsilə Putinin Paşinyana xəbərdarlıq mesajı göndərməsi də mümkündür. Həmin ismarıcın kodlarını təxminən belə oxuya bilərik: "Yenə nəzarətimdən çıxıb, Qərbə meyil göstərsən, hakimiyyətdə çox qalmayacaqsan". Əlbəttə, bu, tam mümkündür. Ən azından ona görə ki, Paşinyanın seçkilərdə qalib gəlməsinin rəsmi Moskva üçün arzuolunan olmadığı çoxlarına məlumdur.

Və nəhayət, istisna deyil ki, Paşinyan daxildəki xaotik vəziyyəti stabilləşdirməkdən ötrü Putindən kömək istəyib. Yəni "quyruğu qapı arasında qalıb".. Əgər belədirsə, deməli, bu, baş nazirə ucuz başa gəlməyəcək. Rəsmi Moskva vəziyyətdən mümkün qədər öz xeyrinə istifadə etməyə çalışacaq.

Bütün hallarda sərhəddəki təxribatların təsadüfi olduğuna inanmıram. Görünür, düşməni (Bu yerdə insanın yadına "İlanın ağına da lənət, qarasına da" misalı düşür) narahat edən nəsə var. Ermənilər Azərbaycanla Türkiyə arasında imzalanan Şuşa Bəyannaməsinə qısqanclıqla yanaşa və kommunikasiya xətlərinin açılmasına əngəl törədə bilərlər. Bəlkə də, provokasiyalar bu məqsədlədir. Fikrimcə, belə reaksiyalar davamlı olacaq. Ta ki, atəş açılan nöqtələr susdurulana, erməni quldurları başlarının üzərində PUA-ları görənədək.

## Mübarizə aparmaq asan deyil

"Səhiyyə Nazirliyi müxtəlif istehsalçılara saxta sənəd təqdim edib"



**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları Bakı şəhəri, Nəsimi rayonu, 5-ci mkr., A.Məhərrəmov küç., ev 20A ünvanında fəaliyyət göstərən fiziki şəxs İskəndərov Həyatxan Hüseynəli oğluna məxsus ərzaq məhsullarının topdan və pərakəndə satışını həyata keçirdiyi ticarət müəssisəsində yoxlama keçirib.**

AQTA-dan verilən məlumata görə, yoxlama zamanı ticarət müəssisəsində ərzaq məhsullarının saxlanması və satışı zamanı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların pozulması faktı aşkar olunub.

Eyni zamanda ərzaq məhsullarının saxlanılması və satışı zamanı temperatur rejiminə riayət edilmədiyi, termiki emaldan keçmədən istifadə edilən quru meyvələrin, çərəzlərin və ədviyyatların ticarət müəssisəsinin qarşısında üzəri açıq şəkildə satıldığı müəyyən edilib. Aşkar olunmuş faktlarla bağlı qanunvericiliyə uyğun tədbirlər görülüb. Araşdırmalar davam etdirilir.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov aşkara çıxarılan neqativ hallar barədə "Şərq"ə danışıb:** "AQTA əlindən gələni edir. Lakin təəssüflər olsun ki, Səhiyyə Nazirliyi illər boyu müxtəlif istehsalçılara saxta sənəd təqdim edib. Həmçinin bir çox biznes qurumlarına sanki toxunulmazlıq verilib. Belə yerlərin çoxunun məmurların əlində olduğu kimsəyə sirr deyil. Qanunvericilikdəki boşluqlar da öz sözünü deyir. Və nəhayət, ən mühüm məsələlərdən biri istehlakçıların maarifləndirilməsidir. Onlar küçədə açıq havada, anti-gigiyenik şəraitdə satılan məhsullardan uzaq durmalıdırlar".

**Kənan**



# Dövlət xəstəxanalarına diqqət azalıb

*"Hamı düşünür ki, əhalinin böyük çoxluğu özəl xəstəxanalara müraciət edir"*

1 saylı Kliniki Tibbi Mərkəzdəki (Seməşko) tibbi avadanlıqların fəaliyyətində problemlər yaranıb. Bu barədə müayinələr zamanı sözügedən problemlə üzləşən pasiyentlər məlumat verib.

Taksikoloji-kimyəvi müayinələrin aparılması üçün istifadədə olan tibbi avadanlığın işlək olmaması xəstələr (onlar daha çox böyrək və qaraciyər köçürülmüş pasiyentlərdir) arasında narazılıqla qarşılanıb. Pasiyentlər aparatın işləməməsinin səbəbini soruşduqda həkimlər cavab verməyiblər. Amma xəstələrə bildirilib ki, sözügedən cihaz hələ daha bir müddət işləməyəcək.

Səhiyyə Nazirliyi xəstəxanadakı tibbi avadanlıqların fəaliyyətində problemlərin olması ilə bağlı yayılan məlumatlara münasibət bildirib.

Nazirlikdən verilən məlumata görə, sözügedən problem müşahidə edilən ilk gündən zəruri tədbirlər görülüb: "Bu məsələ ilə bağlı cihazda problem yarandığı gündən nasazlıq müşahidə edilən böyük ehtiyat hissə İnovasiya və Təchizat Mərkəzi tərəfindən sifariş olunub. Qarşıdakı bir həftə ərzində cihazdakı problem tam aradan qaldırılacaq. Eyni zamanda cihaza baxış keçirilməsi üçün Türkiyədən həmin sahə üzrə mütəxəssis də dəvət edilib".

**Baş verənlərlə bağlı "Şərq"ə danışan Azərbaycan Demokrat Partiyasının (ADP) sədri, ixtisasca həkim Sərdar Cəlaloğlu bildirib ki, sanki səhiyyə sistemimizdə bir növ arxayınlıq yaranıb:** "Hamı düşünür ki, əhalinin böyük çoxluğu özəl xəstəxanalara müraciət edir. Ona görə də dövlət xəstəxanalarına diqqət olduqca azalıb. Dünyanın bütün ölkələrində rəqabət şəraitində həmişə dövlət və özəl sektor bir-biri ilə rəqabət aparır. Azərbaycanda isə son vaxtlar tibbi sığorta kimi problemlər var, səhiyyəmiz də yeni bir sistemə keçməlidir. Təbii ki, bu keçid nahamar gedir. Səhiyyə sistemimizdə korrupsiya var. Bu baxımdan avadanlıqların yenilənməsinə və xəstəxananın digər təminatına ayrılmış pulların hamısı korrupsiya vasitəsilə sıradan çıxarılır. Beləliklə, lazım olan yenidənqurma işləri baş vermir".

**Yeganə Bayramova**

# Özgüvənsiz qadınların psixikası tamam pozulur

*Küçəyə atılan körpələrin əksəriyyəti nikahdankənar doğulan uşaqlardır*



Ölkəmizdə daha bir körpə uşaq küçəyə atılıb. Hadisə Ucar rayonunda qeydə alınıb. Hüquq-mühafizə orqanlarından bildirilib ki, körpə səhər saatlarında küçədə tapılıb. Oğlan uşağı xəstəxanaya yerləşdirilib.

Ucar Rayon Mərkəzi Xəstəxanası yeni doğulmuş uşaqla bağlı açıqlama verib. Xəstəxanadan bildirilib ki, körpə bu gün səhər saatlarında tibb müəssisəsinə təhvil verilib: "Yeni doğulmuş körpənin çəkisi 4,1 kiloqram, boyu isə 53 santimetrdir. Onun müalicəsi yeni doğulmuşlar şöbəsində aparılır. Körpənin vəziyyəti qənaətbəxşdir". Xatırladaq ki, bir neçə gün əvvəl Sumqayıtda "Yaşıldərə" yaşayış massivində zibil qutusundan yeni doğulmuş qız uşaq tapılmışdı. Sanki bu cür iyrənc əməllər cəmiyyətimizdə adət halını alıb. Təəssüf ki, yetişkin adlandırdığımız şəxslərin məsuliyyətsizliyi və insanlıqdan kənar davranışının cəzasını körpələr çəkir. **Hadisəni "Şərq"ə dəyərləndirən cərrah mama-ginekoloq Fəxranə Hüseynzadə vurğulayıb ki, yeni doğulan bir körpənin küçəyə atılması qəbuledilməzdir:** "Axı bu uşaqdır, hansısa bir əşya deyil ki? Bir neçə günlük uşağın küçəyə atılması onun ölümün caynağına verilməsidir ki, bu da birbaşa qəsdən adam öldürmə hesab oluna bilər. Bəlkə də, doğumdan sonra həmin körpəni öldürmürlər, işgəncə vermirlər, amma küçəyə atılan uşağın orada ölüb-ölməyəcəyini də əvvəlcədən bilmək olmaz. Körpəni kiminsə qapısına qoyub qaçarkən müəyyən mənada onun götürülüb, polisə və ya hansısa internat evlərinə veriləcəyini düşünmək olar. Amma uşağı küçəyə atmaqdan ancaq ürək ağrısı ilə danışmaq olar. Hesab edirəm ki, normal psixologiyada olan heç bir ana öz uşağını lazımsız bir əşya kimi zibilxanaya atmaz. Bu cür insanlar psixi xəstələrdir.

Atılan uşaqların əksəriyyəti nikahdankənar doğulan uşaqlardır. Sosial tənqidə dözə bilməyən qadınlar uşaqdan imtina etməyə məcbur olurlar. Lakin dünyaya uşaq gətirməyə hazır olmayan qadın, övlad istəməyən biri öncədən tədbir görməli idi. Yəni hamiləlikdən qorunmaq ən optimal çıxış yoludur. Düşünürəm ki, övladını atan valideynlərə qarşı sərt addımlar atılmalı və bu, ictimaiyyətə açıqlanmalıdır ki, digər insanlar nəticə çıxarsın".

**Yeganə Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

# Görülən işlər həqiqətən çoxdur

## *Mərhələli şəkildə insanlarımız öz torpaqlarına qayıdacaqlar*

Müharibədən sonra işğaldan azad edilmiş bölgələrimizdə sürətli şəkildə bərpa və quruculuq işlərinə başlanıb. Bu prosesə yerli müəssisələr və qurumlarla yanaşı müxtəlif xarici şirkətlər də dəvət alıb. Azərbaycanın dövlət başçısı bərpa və yenidənqurma işlərində ən müasir və innovativ texnologiyalardan istifadə olunacağını, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları tətbiq olunacağını bildirib.



Artıq Füzulidə beynəlxalq aeroportun tikilməsinə start verilib. Zəngilanda, Laçın və Kəlbəcərdə də beynəlxalq hava limanları inşa ediləcək. Hazırda azad olunmuş ərazilərdə təhlükəsizliklə bağlı məsələlərin həll olunması ilə yanaşı, ilkin infrastruktur və sosial xidmətlərin təmin edilməsi ilə bağlı vəzifələr icra olunur. Dövlət tərəfindən yol infrastrukturu qurulur, dövlət qurumları, ilk növbədə kommunal xidmət göstərən qurumların yerli bölmələri öz sahələri üzrə fəal işə başlayıblar. İşğaldan azad olunmuş torpaqların kifayət qədər böyük ərazini əhatə etməsi nəzərə alınaraq, burada iqtisadiyyatın bərpası çoxşaxəli yanaşmaya söykənən vahid konseptual dövlət proqramı əsasında həyata keçirilir.

Erməni vandallarının 30 il ərzində yaşayış və ictimai binaları yerlə-yeksan edərək dağıtması, bütün infrastruktur obyektlərini, maddi-mədəniyyət abidələrini məhv etməsi nəticəsində dəymiş ziyanın aradan qaldırılması və həmin ərazilərə yenidən həyatın qayıtması böyük vəsait tələb edir. Məlum olduğu kimi 2021-ci ilin dövlət büdcəsində əsaslı xərclər üçün nəzərdə tutulan vəsaitin 2,2 milyard manatı işğaldan azad olunan tarixi ərazilərimizə böyük qayıdışın təmin edilməsinə xərclənəcək. Əlbəttə, bu, ilkin məbləğdir və Qarabağın dirçəlməsinə davamlı şəkildə vəsait ayrılacaq. İşğdaldan azad edilmiş bəzi bölgələrdə infrastruktur mövcud olsa da, bəzi bölgələrdə hər şey sıfırdan tikilməlidir. Bunları nəzərə alaraq demək olar ki, müxtəlif bölgələrə fərqli dövrlərdə mərhələli şəkildə məskunlaşma mümkün ola bilər. 2016-cı il aprel döyüşlərində düşməndən azad etdiyimiz Cocuq Mərcanlı kəndində məskunlaşma 1 il sonra başlanmışdı. Bu təcrübəni nəzərə alaraq deyə bilərik ki, 2021-ci ilin əvvəlindən etibarən iri yaşayış məntəqələrində məskunlaşmaya start verilməsi mümkündür. Bir neçə gün əvvəl xarici işlər nazirinin müavini Elnur Məmmədov da bildirib ki, gələn ildən köç prosesinə başlana bilər. Onun sözlərinə görə, hazırda Füzuli hava limanının tikintisi davam edir: ”Hava limanının bu il sentyabrın 5-də açılacağı gözlənilir. Zəngilanda yaradılan ”ağıllı kənd”ə sakinlərin növbəti ilin yanvar ayında köçürüləcəyi gözlənilir. Bu ərazilərdə beynəlxalq hava limanları da tikilir”.

E.Məmmədov həmçinin ifadə edib ki, Ermənistan işğal etdiyi ərazilərdə ”yandırılmış torpaq” siyasətindən istifadə edib. O xatırladıb ki, ötən il Azərbaycan 10 min kvadrat kilometrdən çox ərazisini işğaldan azad edib: ”Bu ərazilər 30 ilə yaxın Ermənistanın işğalı altında olub. Onlar işğal olunmuş ərazilərdə bilərəkdən hər bir evi, ictimai binaları, infrastruktur obyektlərini, məktəb və xəstəxanaları yerlə-yeksan ediblər. Onlar bunu həmin ərazilərə qayıtmağı gözləyən məcburi köçkünlər üçün orada yaşayışı qeyri-mümkün etmək üçün ediblər”.

**Millət vəkili Cavid Osmanov ”Şərq”ə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində parlaq Qələbə qazandıqdan dərhal sonra işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması və bərpa işlərinə start verilib.** Deputatın sözlərinə görə, həcm və miqyas baxımından görülən işlər həqiqətən çox nəhəngdir: ”Füzulidə beynəlxalq hava limanının tikintisi, nəqliyyat yollarının çəkilməsi, digər infrastrukturların həyata keçirilməsi sürətlə davam etdirilir. Dövlət başçısı işğaldan azad edilmiş əraziləri ”yaşıl zona” adlandırıb. Bölgədə külək, su və günəş enerji stansiyalarının qurulması nəzərdə tutulur. Eyni zamanda dəmiryol xətlərinin çəkilişinə başlanılıb. Ağdam rayonunun baş planı da hazırdır. Ölkə rəhbərinə təqdim olunub və təsdiqlənib. Zəngilan rayonunda birinci ”ağıllı kənd” pilot layihəsi 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Layihənin icrası, əsasən, 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, ”ağıllı kənd təsərrüfatı” və alternativ enerji sahələridir. Ərazidə ilk olaraq 200 fərdi evin tikintisi nəzərdə tutulub. Kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu formalaşdırılacaq”.

*Parlament üzvünün qənaətincə, dövlət başçısının işğaldan azad edilmiş rayonlarımıza dəfələrlə səfər etməsi, bir çox layihələrin təməlinin qoyulması, aparılan işlərlə yaxından maraqlanması, yeni tapşırıqların verilməsi hər birimizdə əminlik yaradır ki, mərhələli şəkildə insanlarımız öz torpaqlarına qayıdacaqlar:* ”Ölkə rəhbərinin istəyi odur ki, vətəndaşlarımız öz yurdlarına geri döndükdə bütün infrastruktur qurulmuş olsun. Onların məşğulluğu və təhlükəsizliyi təmin edilsin. Təbii ki, hər şeydən öncə ərazilərimiz minalardan təmizlənməlidir. Dövlət başçısı cənab İlham Əliyevin səyi nəticəsində artıq 3 rayonun - Ağdam, Zəngilan və Füzuli rayonlarının ərazisinin minalanmış xəritələri Ermənistandan alınıb. Bu da təqribən 190 min ədədə yaxın piyada və tank əleyhinə minaların yerinin müəyyən edilərək zərərsizləşdirilməsi deməkdir. Ərazilərin təhlükəsizliyinin təmin olunması insanların öz doğma yurdlarına köçünü daha da sürətləndirəcək. Əgər xəritələri əldə edə bilməsəydik, xeyli vaxt itkisinə səbəb olardı”.

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

## Türkiyədə Qurban bayramında 9 gün iş olmayacaq



**Türkiyədə Qurban bayramı münasibətilə 9 gün iş olmayacaq.**

APA-nın yerli bürosunun xəbərinə görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin növbəti iclasından sonrakı açıqlamasında bildirib. Ərdoğan deyib ki, iclasda ”İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında” Qərara əsasən, 2021-ci il 19 iyul bayram öncəsi (ərəfə günü) olan yarım iş günü qeyri-iş günü hesab edilməklə 17, 18, 19, 20, 21, 22, 23, 24, 25 iyul - ardıcıl qeyri-iş günü olacaq.

# Kreml ölkələri öz orbiti ətrafında saxlamaq istəyir

## *Azərbaycanın KTMT-yə müşahidəçi statusunda qatılması doğru olmaz*



"Azərbaycanın Rusiyanın yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müşahidəçi statusunda qatılacağı xəbərləri yayılıb". Bu barədə "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Ekspert bildirib ki, Azərbaycan rəsmilərinin məsələyə aydınlıq gətirməsinə ehtiyac var:

”Həqiqətənmi rəsmi Bakı Azərbaycanın KTMT-də müşahidəçi statusu almasını istəyir və bununla əlaqədar olaraq təşkilata müraciət edib? Əgər belə bir müraciət olubsa, bunun hansı zərurətdən yarandığı izah edilməlidir. Şəxsən mən Azərbaycanın KTMT-yə müşahidəçi statusunda qatılmasının əleyhinəyəm. KTMT Rusiyanın yaratdığı amorf bir qurumdur. Bəli, KTMT Azərbaycanla Ermənistan arasındakı müharibəyə qarışmadı, qarışa da bilməzdi. Çünki müharibə Azərbaycan ərazisində gedirdi, təşkilatın Ermənistanı müdafiə etməsi üçün heç bir əsası yox idi. Digər tərəfdən Rusiyanı və Ermənistanı çıxmaq şərtilə təşkilatın digər üzvləri birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Cənubi Qafqazda Azərbaycanla əməkdaşlığa önəm verirlər. Rusiyadan son illər silah və hərbi texnika da almırıq ki, KTMT-nin üstünlüklərindən istifadə edək. Rusiya ərazimizə atılan ”İsgəndər M” raketlərinin izahını da vermədi. Bütün bunlar varkən, təşkilata müşahidəçi statusuyla niyə qatılaq ki?”.

Politoloqa görə, Türkiyə ilə imzalanan ”Şuşa bəyannaməsi” də Azərbaycanın KTMT-dən məsafə saxlamasını diktə edir: ”Azərbaycanın KTMT-yə müşahidəçi statusunda qatılması, sadəcə, Rusiyaya lazımdır ki, bizi öz orbiti ətrafında saxlaya bilsin. Bizə bu lazımdırmı?”.

**İsmayıl**

# Mirzə Fətəli Axundovdan Rəsulzadəyədək...




## *Təranə Abdullayevanın "Ədəbi düşüncələr"i barədə düşüncələr*

Fiologiya üzrə fəlsəfə doktoru Təranə Abdullyevanın bu il nəşr olunan "Ədəbi düşüncələr" kitabı yeni Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinə həsr olunub. Bundan öncə XX əsrin əvvəlində Azərbaycan ədəbiyyatında qərbçilik meyillərini araşdıran müəllif bu kitabında mədəniyyətimizdə millətləşmə prosesində iştirak edən şəxsiyyətlərin həyat yaradıcılığına yeni nəzərlə baxır.

Kitab daha çox Azərbaycan dramaturgiyasının banisi, fikir, düşüncə adamı kimi tanınan Mirzə Fətəli Axundzadənin şeir yaradıcılığı ilə başlayır. T.Abdullayeva öncə Mirzə Fətəlinin əruz vəznində olan şeirlərini tədqiq etməyə üstünlük verir. Rusiya-İran sərhədində xidmət edən Kapitan İqnaroviçə həsr etdiyi şeiri araşdıran müəllif onun yazılma səbəbini də araşdırır. Dövrün tələbləri ucundan bir neçə şeiri vəzifə sahiblərinə həsr edən Mirzə Fətəlinin özünün əlifba layihəsiylə bağlı qələmə aldığı şeirlər də geniş araşdırılır. Yeni əlifbanın həyata keçməsi üçün Fuad paşaya ithaf edilmiş şeirdə ona olan dərin inam əks olunmağından bəhs olunur. M.F.Axundzadənin təkcə mədh şeirləri yox, həcvləri də araşdırma mövzusudur. Əlifba proqramına əhəmiyyət verməyən İranın Fransadakı səfirliyində çalışan Əbdülrəsul xana yazmış olduğu həcvə toxunulur. Əlifba kimi vacib işə fikir verməyib öz kefinin dalınca qaçan Əbdülrəsul kimi insanları görərkən Mirzə Fətəlinin necə acılar çəkdiyi əks olunur.

Kitabda M.F.Axundzadə ilə bağlı Azərbaycanda az araşdırılmış İstanbul səfərinə ayrıca məqalə həsr edilib. Araşdırma məqaləsində ilk olaraq Mirzə Fətəlinin Qafqaz canişini K.F.Lellidən bu əlifba layihəsiylə bağlı icazə istədiyi qeyd olunur. Dövrünün fikir adamı canişinə bunun nəticəsində həmçinin maddi gəlirin də əldə oluncağı fikrini çatdırır. Dövrün çar Rusiyasının dəstəyi olmadan bu işin baş tuta bilməyəcəyini anlayan Mirzə Fətəlinin alman əsilli akademik A.Dornun köməyi ilə Rusiya Elmlər Akademiyası ilə əlaqənin təmin olunması nəzərə çatdırılır. Müəllif kitabında bu faktları göstərməklə əlifba islahatı zamanı Mirzə Fətəlinin bir fərd kimi nə qədər əziyyət çəkməsini oxucuların diqqətinə çatdırır. İstanbuldakı əlifba müzakirələr zamanı M.F.Axundzadənin rumlu Aleksandr bəylə mübahisənin qeyd olunması isə Osmanlı dövlət elm mühitində xaricilərin mənfi rolunu göstərməkdən ibarətdir. Barəsində şeir həsr etdiyi Fuad paşadan narazı qalan Mirzə Fətəlinin məyusluğunun əlifba kontekstində göstərilməsi isə onun mücadiləsini əks etdirir. Lakin bununla yanaşı Türkiyədə 1925-ci ildə həyata keçirilən əlifba inqilabında onun rolunun qeyd olunması bu layihənin əslində qalib gəlməsini təsdiqləyir.

Azərbaycan istiqlalının əldə olunmasında mühüm rol oynamış M.Ə.Rəsulzadənin şeirlərinin "Füyuzat" jurnalında çap edilməsi də kitabda əksini tapır. Bu tədqiqdə bir əlaqə mövcuddur. Azərbaycanın gələcək müstəqilliyində rol oynamış "Füyuzat" ədəbi məktəbinin nəşrində istiqlal məfkurəsinin daşıyıcısı olacaq Rəsulzadənin şeirlərindən bəhs olunması davamlılığın göstəricisi kimi görünür. "Füyuzat"da nəşr edilən müəllifin ilk şeiri olan "Həsbi-hal" da araşdırılır.

Daha sonra kitabda M.Ə.Rəsulzadənin hekayə yaradıcılığına da toxunulur. Bu hekayələrin publisistikaya yaxınlığı qeyd olunmaqla yanaşı lirik-psixoloji tərəflərinə də toxunan müəllif əsasən "Bir qocanın müsibəti" hekayəsini təhlil edir. Hekayənin qəhrəmanı Səfərəlinin həyat uğrunda mübarizəsindən bəhs olunur. Onu C.Məmmədquluzadənin Məmmədhəsən əmi obrazıyla müqayisəsi zamanı qəhrəmanın güclü tərəflərini açıb göstərir.

Müəllif daha sonra M.Ə.Rəsulzadənin "İrani-nov" qəzetində dərc etdirdiyi "Şər arvadlar" hekayəsindən bəhs edir. Bu hekayələrdə əsasən Rəsulzadənin Cənubi Azərbaycan, İran mühitindən baş verənlərə münasibəti araşdırılır. Rəsulzadənin dram yaradıcılığından bəhs edən zaman müəllif Vaqif Sultanlının araşdırmalarından bəhrələndiyini qeyd edir. Rəsulzadənin ilk dramı olan "Qaranlıqda işıqlar" əsərinin baş obrazı Qəhrəmanın Ə.Haqverdiyevin "Bəxtsiz cavan"ındakı Fərhadıyla müqayisə edir. Təəssüf ki, bu dram əsəri əldə olmamışdır, lakin dövrün xatirələr əsasında əsər barədə lazimi məlumat verilir. Məhəmməd Hadinin Türkiyəylə ədəbi əlaqələrindən danışılması isə M.F.Axundzadənin İstanbul səfərinin bəhsindən sonra daha əlaqəli görünür. Zamanının modern türk şairi olan Tofiq Fikrətə M.Hadinin rəğbətinin kökü araşdırılır. T.Abdullayeva T.Fikrətə hücumlar zamanı romantik şairimizin onu müdafiə etdiyini yazır. Daha sonra T.Fikrətin M.Hadinin sayəsində Azərbaycan oxucusuna tanıdılması araşdırılır. Onun İstanbuldakı Sultan məktəbində müasir elmləri öyrəndiyi barədə məlumat verilir. Türk şairinin "Sis" adlı məşhur şeirinin də hürriyyət elanından sonra dərc olduğunu M.Hadi tərəfindən məlumat verilməsi ortaya çıxarılır. Daha sonra T.Abdullayeva Hadinin Türkiyə mətbuatındakı fəaliyyətinə geniş nəzər yetirir.

Daha sonra kitabda Məhəmməd ağa Şahtaxtlının fəaliyyəti barədə bir neçə məqalə diqqəti çəkir. Əvvəlcə M.Şahtaxtlının Mirzə Fətəli ilə münasibətləri araşdırılır. Onun ilk dramaturqdan sonra yeni əlifba layihəsini dəstəklədiyi qeyd olunur. Əlifba layihəsində yazı və çap variantlarında azalmadan birləşdirmə üsullarının yeniləşməsi haqqında məlumat verilir. Həmçinin M.A.Şahtaxtlının fransız dilində yazmış olduğu "Türkiyəni necə xias etməli" traktakı haqqında da müəyyən məlumatlar verilir.

M.A.Şaxtaxtlı irsinin öyrənilməsinin tarixi tətqiqi zamanı T.Abdullayeva bir neçə şəxsin bu sahədə rolunu işıqlandırır. Ş.Novruzovun araşdırmaları əsasında böyük mütəffəkirin Quranı ilk dəfə ana dilimizə tərcümə etməsi barədə məlumat verilir. Onun Leysbiq Universtetində çalışan zaman ərəb ədəbiyyatı tarixi haqqında da müstəqil əsər yazması qeyd olunur. Kəmalə Zeynalovanın Məhəmməd ağa Şahtaxtlının rus dövri mətbuatındakı iştirakından bəhs edən əsərinin təhlili zamanı bu əsərdə onun ədəbi-publisitik fəaliyyəti haqqında geniş məlumat verilməsi məlumatı oxuculara təqdim olunur. Şahtaxtlının ilk tərcümeyi-halını təqdim edən şəxsin Əziz Mirəhmədov olduğu xatırlanılır. M.Şahtaxtlının 2006-cı ildə seçilmiş əsərlərinin nəşrində akademik İsa Həbibbəylinin rolu da göstərilir.

M.Şahtaxtlının Güney Azərbaycanla bağlı fikri fəaliyyətindən bəhs olunarkən əsasən onun millətləşmə prosesindəki mühüm rolu qiymətləndirilir. Onun 1891-ci ildə "Kaspi" qəzetində çap etdirdiyi "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı" məqaləsində ilk dəfə xalqımızı azərbaycanlılar, dilimizi də Azərbaycan dili adlandırması kimi vacib fakt ortaya çıxarılır. M.Şahtaxtlının "Müsəlmanlarda məktəb həyatı" məqaləsində müəllifin müsəlman və milli kimlik anlayışları barədə fərqi izah edir. Yaranmış kimlik problemi anlaşılsın deyə yazarın rus oxucularına müsəlman sözünü anlatmasından bəhs olunur. T.Abdullayeva daha sonra M.Şahtaxtlının milləti və dili türk adlandırmasını da araşdırır. Onun "Müsəlmanlarda məktəb həyatı" məqaləsində bu fikirlərə yer verdiyi qeyd olunur.

M.Şahtaxtlının Güney Azərbaycan və ana dili məsələləri haqqında fəaliyyətinin işıqlandırılması zamanı millətləşmə xəttinə üstün yer verilir. Müəllifin Qacar sarayında da və sıravi xalq arasında da danışıq dilinin türk olduğu qeyd olunur. M.Şahtaxtlının Təbriz ləhcəsiylə istanbulluların, marağalıların danışıqları arasında az fərqin olmasını ifadə edir. Həmçinin M.Şahtaxtlının Fransada təhsil alan cənublu tələbələrin istedadı barədə qiyməti də araşdırılır.

Təranə Abdullayevanın araşdırma məqalələri ilə zəngin olan bu kitabında M.F.Axundov, M.Ə.Rəsulzadə, M.Şahtaxtlıyadək şəxsiyyətlərin həyat və fəaliyyətlərinin bizə məlum olmayan tərəfləri aydınlaşdırılır. Sovet dövründə məlum səbəblərə görə ortaya çıxarılmayan cəhətləri qeyd olunur. Fikrimizcə, bu kitab Azərbaycan tarixi, ədəbiyyatı, mətbuatı ilə maraqlananlar üçün gərəkli mənbə rolunu oynaya bilər.

**Ceyhun Mirzəli**

## Taleh Mansurdan yeni şeir: Altıncı hiss



Tanınmış şair Taleh Mansurun "Altıncı hiss" şeirini təqdim edirik.

**Altıncı hiss**

Yollar da bitəcək, ay gedən adam,
Ayaqlar geriyə addım atacaq.
Hər şeyi satmağa gətirən adam
Bazarın özünü harda satacaq?

Haqq-hesab təkindi, tünlük iş deyil,
Sevginin işidi, kinlik iş deyil.
Qaçma arxasınca, sənlik iş deyil,
Könül oğrusunu ahın tutacaq.

Tikanlar bezəcək gül qınağından,
Arılar keçəcək bal sınağından,
Sərin meh öpəcək şeh yanağından,
Yağışın başını külək qatacaq.

Nəyimə lazımdır bu daş-bu kəsək?
Doldur badələri boşalsın ətək.
Şərab dəryaları süzüb içməsək,
Xəyallar ən dayaz yerdə batacaq.

Ay heyran olduğum, hanı heyrətin?
Nənnisi varıymış hər məhəbbətin,
Dediyin laylaya yatmağım çətin,
Yatsa bu laylaya, ürək yatacaq.

Dünən elə getdi bu gün də belə,
Yaman tələsirəm sabahımgilə.
Yəqin ki, ölməyə bir az var hələ,
Yaşamaq növbəmiz nə vaxt çatacaq?

**Taleh Mansur**
**17 iyun 2021**

## Şəbəkə kifayət qədər genişdir

### Bu şəbəkəyə dəstək verənlər var



**Lənkəran Şəhər Rayon Polis Şöbəsinin (ŞRPŞ) əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində külli miqdarda narkotik vasitə və psixotrop maddə aşkarlanaraq qanunsuz dövriyyədən çıxarılıb.**

DİN Mətbuat Xidmətinin Lənkəran regional qrupundan verilən məlumata görə, Lənkəran ŞRPŞ-nin əməkdaşları daxil olmuş məlumat əsasında keçirilən əməliyyat tədbirləri ilə Lənkəran şəhər sakini, əvvəllər məhkum olunmuş F.Fərəcov saxlanılıb.

Onun üzərindən 1 bükümdə psixotrop maddə metamfetamin, 1 bükümdə narkotik vasitə heroin aşkarlanıb.

**Millət vəkili Fazil Mustafa artıq parlamentdə də müzakirə edilən problemə qarşı mübarizə barədə "Şərq"ə danışıb:** "Düzdür, psixotrop maddəni yayanlar və satanlar məsuliyyətə cəlb edilib. Amma şəbəkə kifayət qədər genişdir. Odur ki, cəmiyyət bütünlüklə bu prosesdə iştirak etməlidir. Sözügedən şəbəkəyə dəstək verənlər var. Onlar ifşa edilməli və cəzalanmalıdırlar. Əks halda sonrakı proseslər arzuolunan nəticə verməyəcək".

**Kənan**

# Xəstələrin taleyi ilə oynamaq cinayətdir

Ötən gün məlum olduğu kimi, 1 saylı Kliniki Tibbi Mərkəzdəki (Semaşko) tibbi avadanlıqların fəaliyyətində problemlər yaranıb. Taksikoloji-kimyəvi müayinələr aparılması üçün istifadədə olan tibbi avadanlığın işlək olmaması xəstələr (onlar daha çox böyrək və qaraciyər köçürülmüş pasiyentlərdir) arasında narazılıqla qarşılanıb. Səhiyyə Nazirliyi məsələyə reaksiya verib. Qurumun Mətbuat xidmətindən bildirilib ki, bir həftə ərzində yaranmış texniki nasazlıq aradan qaldırılacaq.



*"Semaşko" kimi xəstəxanada tibbi avadanlıqların bir həftə işləməməsi biabırçılıqdır*

**Mövzu ilə bağlı sosioloq Sahib Altay "Şərq"ə açıqlama verib. O bildirib ki, dövlət xəstəxanalarında bu kimi problemlərin yaşanması utancvericidir:** "Ümumiyyətlə, Azərbaycan və Azərbaycan kimi statusu olan ölkələrdə vətəndaş hüququ o qədər nəzərə alınmır. Məhz buna görə də istər vətəndaş, istərsə də məmur tərəfindən xidmət sahələrində həm ləngimə, həm də ictimai əxlaqsızlıq nəzərə çarpır. Yəni bizdə və bizim statusumuzda olan ölkələrdə peşə məsuliyyəti və əxlaqı yoxdur. Bu da birbaşa olaraq hüququn işləməməsindən doğan problemdir. Yəni reallıq bundan ibarətdir. Heç bir inkişaf etmiş ölkədə belə bir problemin baş verməsi mümkün deyil. Bəli, avadanlığın hər hansısa səbəbdən sıradan çıxması mümkün ola bilər. Ancaq onun tezliklə təmiri üçün dövlət tərəfindən təşkil olunmuş servis xidməti olur. Yəni bu, özəl servis də ola bilər. Əgər problem servisin tezliklə aradan qaldıracağı problem deyilsə, bu vaxt nə edirlər? Bilirsiniz ki, indi bütün dünya texnologiya ilə idarə olunur. Həmin ölkələrdə müəyyən təchizat sistemləri var ki, həmin sistemlərdə yaranan problemlər nəzərə alınır. Yəni orda yatan nə qədər xəstə varsa, xüsusən də böyrək çatışmazlığından əziyyət çəkənlər birbaşa olaraq həmin aparat vasitəsilə idarə olunurlar. Habelə, xəstəxanalarda ehtiyat avadanlıqlar da olur".

**Sosioloq diqqətə çatdırıb ki, bir həftə ərzində yaranmış texniki nasazlığın aradan qaldırılması çox uzun müddətdir:** "Fikrimcə, bu məsələ tezliklə aradan qaldırılmalıdır. Ümumiyyətlə, bizdə hər sahədə belə məsuliyyətsizliklər nəzərə çarpır. Bir misal deyim. Məsələn, dünyada internet kommunikasiya qovşaqları ilə bağlı fəaliyyət göstərən servislər, böyük şirkətlər var. Bilirsiniz ki, internetin fəaliyyət göstərməsi üçün dünyanı bir-birinə bağlayan kabel xətləri mövcuddur. Bu da dənizlərin, okeanların altından, təxminən 100 metrliyindən keçir. Xatırlayırsınızsa, 2017-ci ildə Sakit Okeanda 467 dənə ABŞ-a gedən internet kabel kommunikasiya xətlərindən biri köpək balıqları tərəfindən zədələnmişdi. Həmin kommunikasiya xəttinin təmiri üçün təmir şirkətləri tendensiyaya çıxarılmışdı. 7 dəqiqə müddətində bir şirkət onu həll elədi. Yerin üzündə 1 saylı Kliniki Tibbi Mərkəzdə tibbi təchizatın, texnoloji sistemin təmiri üçün bir həftə vaxt verilibsə, bu biabırçılıqdır. Bilirsiniz ki, yüzlərlə böyrək çatışmazlığından əziyyət çəkən xəstələrimiz var. Bu, birbaşa olaraq ictimai və peşə məsuliyyətsizliyi ilə bağlı olan məsələdir".

**Aynurə Pənahqızı**

## "Delta" Gürcüstan sərhəddini aşa bilər

Vaqif Qarayev: "Uşaqlar üçün bu təhlükəlidir, çünki uşaq orqanizmi zəifdir, bərkiməyib"



**Gürcüstanda uşaqlar arasında Covid-19 sürətlə yayılır. Son günlər 65 uşaq xəstələnib. Onlardan 25-i iki aylığına qədər olan körpələrdi. Səhiyyə rəsmiləri "Delta" ştammının yayıldığı qənaətindədirlər.**

*Dediklərinə görə, uşaqlar böyüklərdən (valideynlərdən) yoluxub. Gürcüstandan Bakıya aviareyslər var. Uşaqları qoruyaq!". Bu açıqlamanı həkim-pediatr Vaqif Qarayev şəxsi feysbuk səhifəsində paylaşıb. Vəziyyətlə bağlı V.Qarayevin daha geniş rəyini öyrəndik:*

- Gürcüstan Səhiyyə Nazirliyi "Delta" ştammının varlığını rəsmən təsdiqləyib. Bizdə "Delta" ştammı ilə bağlı rəsmi məlumat yoxdur. Lakin Gürcüstanda və Rusiyada varsa, Azərbaycanda da yayılacağı ehtimalı böyükdür. Gürcüstandan, Rusiyadan aviareyslər var. Gələnlər-gedənlər... Məsələn, Gürcüstana gələn turistlərdən 400 nəfərdə koronavirus aşkarlanıb. Yəni miqrasiya varsa, yoluxma qaçılmazdır. Uşaqlara gəlincə, koronavirusdan fərli olaraq "Delta" daha təhlükəlidir. COVİD-də uşaqların yoluxma faizi "0" idi. "Delta" isə daha çox uşaqları və gəncləri yoluxdurur. Uşaqlar üçün bu təhlükəlidir, çünki uşaq orqanizmi zəifdir, bərkiməyib. İstəmirəm də deyim, amma valideynlər ehtiyatlı olsun deyə, deməliyəm, Gürcüstanda "Delta" ştammı aşkarlanmış 2 körpə süni nəfəs aparatına qoşulub. Bunlar xoşagələn hal deyil. Valideynlər nə edə bilər? Bir evin içində böyüklər yoluxubsa, uşaqların yoluxması labüddür. Yalnız karantin qaydalarına əməl etmək. Tibbi maska, təmizlik şərtlərini yerinə yetirmək. Kütləvi tədbirlərə getməmək, yaxın kontaktdan qaçınmaq. Hər vasitə ilə uşaqları qorumalıyıq. "Delta"nın əlamətləri də koronavirusla eynidir. Əlamətlər varsa, təcili müayinə olunsunlar, testdən keçsinlər, vaxt itirmədən müalicəyə başlansın.

**Məlahət Rzayeva**

# 80 faizədək ucuzlaşma gözlənilir

*"Avropa İttifaqı öz vətəndaşları üçün 2009-cu ildən bu problemi həll edib, 27 ölkədə rouminqi sıfırlayıb"*

Azərbaycan "Şərq Tərəfdaşlığı" təşəbbüsünə qoşulan ölkələrlə regional rouminq sazişi imzalayacaq. Bu barədə Azərbaycan Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən bildirilib. Qeyd olunub ki, nazirlik uzun illərdir həm "Şərq Tərəfdaşlığı" ölkələri, həm də Avropa İttifaqı (Aİ) ölkələrinin telekommunikasiya tənzimləyiciləri ilə sıx əməkdaşlıq edir.

Bu sazişdən sonda Gürcüstan, Ukrayna, Belarus və Moldovaya səfər edən vətəndaşlarımızın rouminq xərcləri maksimum dərəcədə azalacaq.

**Məsələ ilə bağlı Azərbaycan İnternet Forumunun Prezidenti Osman Gündüz "Şərq"ə açıqlama verib:** "Məlumat üçün deyim ki, uzun illərdir ki, Avropanın "EU4Digital" təşəbbüsü çərçivəsində buna hazırlıq getməsinə baxmayaraq indiyədək razılıq əldə etmək mümkün olmayıb. Xatırlayıram ki, prosesin 2020-ci ildə bitməsi gözlənilirdi. Bununla bağlı çoxlu maneçiliklər və maraq toqquşmaları var. Ölkələrin müxtəlif qanunvericilik bazalarına sahib olması, sektorda müxtəlif səlahiyyətlərə malik tənzimləyicilər olması, bəzilərində isə ümumiyyətlə tənzimləyici qurumun olmaması bu məsələnin həllini ləngidən amillərdən olub. Əgər NRYTN rəsmiləri açıqlama veriblərsə ki, cari ildə regional rouminq sazişi imzalanacaq, demək, buradan belə qənaətə gəlmək olar ki , Azərbaycanda telekommunikasiya üzrə müstəqil tənzimləyici qurumun formalaşmasına lap az qalıb. Çünki adıçəkilən razılaşmanın gerçəkləşməsi üçün Avropada sahə üzrə mövcud qaydalar ölkələr qarşısında müəyyən vəzifələr qoyub və onlardan ən əsası da məhz müstəqil tənzimləyici qurumun yaradılmasıdır".



**Ekspertin sözlərinə görə, Azərbaycanda, baxmayaraq ki, Starteji Yol Xəritəsində 2020-ci ilin sonu yaradılması nəzərdə tutulmuşdu, hələlik tənzimləyici qurum yoxdur və onun səlahiyyətlərini elə NRYTN həyata keçirir:** "Xatırlayıram ki, Prezident tərəfindən NRYTN-ə nazir təyinatı zamanı da sektorda əsas həllini gözləyən məsələlərdən birinin də tənzimləmə olduğu bildirilmişdi. İndi NRYTN-in açıqlamasından görünür ki, ölkədə telekommunikasiya sektorunda fəaliyyət göstərəcək müstəqil tənzimləyici qurumun yaradılmasına çox az qalıb. Beynəlxalq təcrübədə tənzimləyici qurumun müstəqil olması, bazar subyektlərindən asılı olmaması, rəhbərinin və ya üzvlərinin Prezident tərəfindən təyin edilməsi daha uğurlu variant hesab olunur. Vətəndaşlar rouminq razılaşmasından nə qazanacaq ? Məlumdur ki, azərbaycanlılar xaricə, hətta qonşu ölkələrə səfər edərkən yüksək rouminq tarifləri ilə üzləşirlər. Adətən başqa ölkəyə səfər edənlər rouminqin hədsiz bahalı olması ucbatından zəruri informasiya münasibətləri qura bilmir, telefonu elə hava limanındaca söndürür. Xüsusən də hədsiz baha olduğundan, indiki zamanda çox vacib olan data (fayl, şəkil, video və s.) ötürülməsindən imtina olunur və ya bu ölkənin mobil nömrəsini almaqla qismən də olsa informasiya tələbatını ödəməyə çalışır. Sazişin imzalanması ilə 6 ölkə arasında mobil rabitədə həm səs, həm SMS, həm də mobil data xidmətlərində rouminqin ləğvi və ya endirilmsi nəzərdə tutulur. Bu saziş daha effektiv informasiya münasibətlərinə imkan verəcək. Qeyd edim ki, ucuz rouminq tariflərinin 2022-ci ildən qüvvəyə minməsi gözlənilir".

**O. Gündüz qeyd edib ki, ümumiyyətlə isə 80 faizədək ucuzlaşma gözlənilir:** "Yeri gəlmişkən, Avropa İttifaqı öz vətəndaşları üçün 2009-cu ildən bu problemi həll edib, 27 ölkədə rouminqi sıfırlayıb. Aİ-nin digər ölkələrlə də rouminiq razılaşmasını nəzərdə tutan "Evdəki kimi rouminq" razılaşması 2017-ci ildə qüvvəyə minib. 2019-cu ilin fevralında "Şərq Tərəfdaşlığı" ölkələri və Avropa İttifaqına üzv ölkələr arasında vahid beynəlxalq rouminq məkanının yaradılması imkanının tədqiqinə dair razılığa gəlinib. Yəni "Şərq Tərəfdaşlığı" ölkələri öz aralarında rouminq problemini həll edə bilsələr, gələcəkdə Avropa İttifaqı və "Şərq Tərəfdaşlığı" ölkələri arasında da sərfəli şərtlərlə rouminq xidmətləri təklif edilməsi gözlənilir".

**Aynurə Pənahqızı**

# "Söz ünvanına çatdı"



Müğənni Rəqsanə İsmayılova Moskvaya üz tutan həmkarları haqda dediyi "Toydan sonra evə gedin. Sizə görə əlimizə mikrofon almağa utanırıq" açıqlamasından söz açıb.

*Rəqsanə İsmayılova: "Demişəm, əcəb eləmişəm. Etməyin, açıqlamayım"*

**"Şərq" xəbər verir ki, o, bu barədə "ATV maqazin onlarla" proqramının "33 sual" rubrikasında danışıb. R.İsmayılova bunları söyləyib:**

"Kimə demişəmsə, kimlərdən danışmışamsa, özləri yaxşı bilir.

Boş yerə dilə gətirməmişəm. Çox da doğru söyləmişəm. Bir məqamı anlamıram, hamısı efirə çıxıb deyir ki, məndən danışmayıb. Mən isə proqramda o sualı cavablandırmazdım. Özümə şübhəm var ki?! Yaxud da deyirlər, Rəqsanə xanımdan soruşmuşam, mən deyiləm. Başa düşmürəm, sən niyə Rəqsanədən soruşursan ki, mən deyiləm? Nə üçün həmin adama sual verəndə demirsən ki, ay filankəs, düşünmürsənmi ki, bu sənsən? Sözün yiyələrindən dəfələrlə soruşublar. Onlar da söyləyir ki, gərək belə deməyəydi, bir-birimizi biabır etməyək. Bəs biz biabır etməyək, kim etsin? Demişəm, əcəb eləmişəm. Etməyin, açıqlamayım. Hansısa səhv etmişəmsə, məndən də desinlər. Ömür boyu səhvlərim ortada olub, gizlətməmişəm. Söz ünvanına çatdı. Bu həyatda yalnız Allahdan qorxuram. Başıma silahı dayasalar da, çəkinmərəm. Onun ərinə hörmət edib susdum. Ərləri saygı göstəriləcək insanlar da deyil. Kişiliyə və övladlarına hörmət etdim. Yoxsa adını çəkərəm, qorxmuram. Mənə heç nə edə bilməzlər. Onlarla səhnə paylaşmamışam".

**Samirə**

## Hüseyn hamını kövrəldib

Sənətçi az yaşından işləmək məcburiyyətində qaldığını söyləyib



**Klarnet ifaçısı Hüseyn Məhəmmədoğlu "Onun sirri" proqramında qonaq olub.**

O, həyatı və sənəti ilə bağlı bir sıra aqçıqlamalar verib. Uşaqlıq illərini xatırlayan musiqiçi hər kəsi kövrəldib.

**"Şərq"in məlumatına görə, sənətçi az yaşından işləmək məcburiyyətində qaldığını söyləyib:**

"Bir qırmızı paltar tapdım, onu bəzədim. Aptekdən pambıq aldım və saqqal düzəltdim, hədiyyələr hazırladım. Dekabr ayının 31-də qapı-qapı gəzib, insanlarla foto çəkdirib pul qazanmağa başladım. Öz məhəlləmizdə işlədim, sonra yolda kimsə məni maşınla götürdü, evlərinə aparıb, dedi ki, "Şaxta baba" gətirmişəm. Onlar hələ də bilmirlər ki, həmin uşaq Hüseyndir. Mən isə onları tanıdım, öz sinif yoldaşımın evi idi. Səsimi dəyişdirdim ki, tanımasınlar. O vaxt məşhur deyildim, sadəcə yaşadığımız ərazidə məni tanıyırdılar. Məşədi Məhəmmədin oğlu idim deyə hər kəs hörmətlə yanaşırdı. "Şaxta baba" kimi xeyli pul qazanmışdım. Səhəri gün gedib evə bazarlıq etdim".

**Samirə**

## Cavanşir Məmmədov Mənzurəni hədələdi

"Nə edək, biz də bildiyimiz hər şeyi açıqlayaq?"



**Müğənni Mənzurə Musayeva bir müddət öncə "Bütün duet ortaqları bir-birilə sevgilidir" açıqlaması ilə gündəmə gəlib. İfaçının sözləri həm sosial şəbəkələrdə, həm də şou aləmində birmənalı qarşılanmayıb. Onu tənqid edənlər də var, dəstəkləyənlər də.**

"Şərq"in məlumatına görə, Cavanşir Məmmədov "Elin sözü" proqramında həmkarına irad bildirib. O, verilişin sonunda hiddətlənərək bu sözləri deyib: "Mənzurə söyləyir ki, duet ortaqları bir-birilə sevgilidir. Öz gözündə tiri görməyənlər, başqasında tircik gəzirlər. Bəyəm, menecerin, prodüserin, sponsorun sevgilin deyil? Deyir, guya Səyyad Əlizadə ilə Mətanət sevgili olub. Utanmırsan onun ailəsinə söz-söhbət salırsan?! Flora Kərimova ilə Gülağa Məmmədov da duet oxuyublar. Onlar da sevgili idi?! Mənzurəyə bir neçə dəfə irad bildirdim. Qayıtdı ki, sizdən danışmıram axı. Nə edək, biz də bildiyimiz hər şeyi açıqlayaq?".

**Samirə**

# Vüsalə Əlizadə öz ad günündən yazdı

*"Arxamca danışan, incidən, qıran, yıxan bədxahlarımı da çox istəyirəm"*

Aparıcı Vüsalə Əlizadə növbəti doğum gününü qeyd edib.



"Şərq" xəbər verir ki, o, instaqram hesabında bu sözləri yazıb: "Həyat belə zamanın hökmünə tabedir. Ona yalan, hiylə, pul-para, güc, rütbə, hansısa bir qüvvə keçməz. Kimsəni fikirləşməz, kimsə üçün dayanmaz, cilddən-cildə girməz. İnsanın müdaxilə edə bilmədiyi, həyatda tək tabe olduğumuz zamandır. Qınamayın, bəlkə çox səmimi olacam, amma bunu etiraf edəcəm. Məni hər gün mən edən, bəzən yıxıb, əzib, sonra yaralarımı sarıyan, ağladıb-güldürən, xatirələr yaşadan, arzular doğuran, ümidlərimə mayak olan, böyüdüb qadın, ana, insana çevirən zamanı sevirəm. Hər il artan yaşımı, pis və yaxşı həyatıma gələn-gedən hər kəsi, hər şeyi, güc aldığım, həyatdan ikiəlli tutunmağıma stimul verən canımdan can olanları, məni sizdən biri edən evinizə, ailənizə qonaq edən işimi, sənətimi, olmadığım yerdə məni doğması kimi müdafiə edən, qoruyan, haqqımı yedirtməyən sizi sevirəm. Arxamca danışan, incidən, qıran, yıxan bədxahlarımı da çox istəyirəm. Çünki sayənizdə Vüsalə Əlizadə oldum. Verdiklərinə və aldıqlarına şükür olsun, Allahım. Xoş gəldin, yeni yaşım, sağlıq, sevgi, hüzur və halal ruzi gətir".

**Samirə**

## Mətanət Əsədova özünü öldürmək istəyib



**Müğənni Mətanət Əsədova səhhətində yaranan problemlərdən danışıb.**

"Şərq"in məlumatına görə, o, "Zaurla Günaydın" verilişində mövzu haqda bunları deyib:

"Səsim üçün ağlayıram. Bu səsdən yenə olsa, göz yaşı tökmərəm. Amma təkrar gəlməyəcək. Bir ildir ki, əzab çəkirəm . Hər xanım xoşbəxt olmağı, ailə səadətini istəyər. Allahdan onu diləmirəm. Deyirəm, canımı al, lakin səsimə dəymə. Uzun müddətdir, sanki ölmüşəm. Hətta demək istədiklərimi də yazırdım, səsim çıxmırdı. Zəng edənlərlə danışmırdım, kimsəni görmürdüm. Söyləyirdim ki, mənə dua edin. Neçə dəfə özümü öldürmək istəmişəm. Çoxmərtəbəli binadan özümü atmağı planlamışam".

**Samirə**

# "Məndən əl çəkin!"

*Nadir Qafarzadə iddiaları qəbul etmir*



"Pantural" ləqəbi ilə tanınan montajçı Tural Səfərovun son çıxışları cəmiyyətdə etiraz doğurub. Ona görə ki, bloqer " açıq-saçıq geyinən qadınları zorlayın" deyərək çağırış edib.

Tənqidlərin ardınca o, "Pantural üzr istədi" adlı ironik video paylaşıb. Bunlarla yanaşı müğənni Nadir Qafarzədinin sözügedən şəxsi dəstəklədiyi iddia olunub, hətta onun sosial şəbəkələrdə bu rəyi yazdığı söylənilib:

"Pantural həbs olunsa, qeyrət cihadı edəcəyik. Açıq-saçıq paltar, şalvar geyinənləri, feministləri zorlayıb iradımızı bildirəcəyik. Hamımız bir olsaq, qeyrətlilərin qarşısında kimsə dura bilməz". Məsələ istifadəçilər tərəfindən xoş qarşılanmayıb. N.Qafarzadə tənqid atəşinə tutulub.

**Mövzu haqda "Şərq"ə açıqlama verən sənətçi belə bir fikir bildirmədiyini xüsusi vurğulayıb:**

"Məndən əl çəkin! Bir ay yarım ölkədə olmadım, başım sakit idi. Yenə bura gəldim. Kim necə gəzir, harada nə edir, nəyimə lazımdır? Hər kəs öz qeyrətini, namusunu çəksin, papağını başında bərk tutsun. Nəyimə gərəkdir? Mənim bacılarım, anam deyillər ki... Özləri bilərlər. Hansısa bir münasibət bildirməmişəm. İnstaqrama baxmağa vaxtım da yoxdur. Həmin platformaya girməyə də iyrənirəm. Çoxdandır paylaşım etmirəm. Öz profilimi də mən işlətmirəm, dostlarım idarə edirlər. Onlar da Moskvada yaşayırlar".

*Qeyd edək ki, Daxili İşlər Nazirliyi Panturalla bağlı araşdırmalara başlayıb.*

**Samirə**



## 2022-ci ildə böyük ekranlı planşet buraxılacaq

**"Apple" şirkəti yaxın gələcəkdə böyük ekranlı planşet buraxa bilər. "Şərq" xarici mətbuata istinadən xəbər verir ki, agentlik hazırda 14-16 düym diapazonuna malik "iPad" üzərində iş aparır.**

Mütəxəssisin fikrincə, böyük ekranlı planşetlər 2022-ci ildə buraxılacaq. Yaxın iki ildə isə ABŞ şirkəti 12,9 düym diaqonallı "iPad Pro" planşetlərini inkişaf etdirəcək. Yayın əvvəlində bloger Zak Nelson yeni "iPad Pro" planşetini test edərək "Apple" mühəndisləri tərəfindən qurğunun korpusunun möhkəmləndirildiyini bildirib. O vurğulayıb ki, əvvəllər ABŞ korporasiyasının istehsalı olan planşetlər əyilmə zamanı sınırdı.

**Aynurə**

# Bu həftəsonuna qədər Bakıya yeni qatarlar gətiriləcək

"Bakı metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin Rusiyadan aldığı daha 4 qatar tərkibi bu həftəsonuna qədər Bakıya gətiriləcək.



Bunu Trend-ə açıqlamasında qurumun Mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib.

O bildirib ki, hazırda qatarlar Azərbaycan sərhədinə yaxınlaşmaq üzrədir: "Bu həftənin sonuna qədər qatarların Bakıya daxil olacağı gözlənilir. Qatarlar Bakıya daxil olandan sonra "Nəriman Nərimanov" deposuna təhvil veriləcək. Depoda qatarlar 2 həftə müddətində sazlanma prosesinə cəlb ediləcək və sınaqdan keçiriləcək. Daha sonra həmin qatarlar xəttə buraxılacaq. 4 yeni qatar istismar müddəti başa çatan qatarlarla əvəzlənəcək".

**B.Məmmədov deyib ki, hazırda Bakı metropolitenində 15 qatar tərkibindən ibarət 75 yeni vaqon istismardadır:** "Yeni gələn vaqonlarla birlikdə metropolitendəki yeni vaqonların sayı 95-ə çatdırılacaq. Razılaşmaya əsasən, gələn il daha 20 yeni vaqondan ibarət 4 qatar tərkibi Bakıya gətiriləcək".

## Xəstəyə süni qollar köçürüldü

### Bu əməliyyat Türkiyədə sayca 5-cidir

*(Əvvəli səh: 16-da)*



48 saat sonra özündə dəyişikliyi görən xəstə, "nə vaxt çalışacaq" deyə həkimə müraciət edib

**Ö.Özkan bu əməliyyatın Türkiyədə sayca 5-ci olduğunu deyib. "Texniki baxımdan çox çətin əməliyyatdır, lakin xəstəmizin bərpa prosesi daha sürətlə gedir.**

Əməliyyatdan sonra ikinci həftədə vəziyyəti artıq çox yaxşıdır. Bundan sonra daim qəbul etməli olduğu dərmanları müəyyənləşdiririk", deyən cərrah "heç bir neqativ hal yoxdur. Xəstəmiz riskli mərhələni sürətli bir şəkildə atlatdı. Təbii ki, burada komandamızın təcrübəsinin əhəmiyyəti böyükdür. Xəstəmizi qısa zaman içində qarşınıza çıxaracağıq. Onun gənc və sağlıqlı olması önəmlidir. Xəstə məmnun, ailəsi məmnun və xoşbəxtdirlər. Əllərini işlədə bilməsini səbirsizliklə gözləyirik", əlavə edib. Cərrah xəstənin süni qollarını əməliyyatdan 48 saat sonra ilk dəfə gördüyünü deyib: "əllərini gördükdə ilk sualı bu oldu: hocam, əllərim nə zaman çalışacaq?.. Ailəsi də bunu soruşmuşdu. 6 ay sonra qollarını çalışdıracağını söyləyə bilərəm. Öncə fiziki hərəkətlər etməli, sonra da yavaş-yavaş qollarını işlətməlidir.

**Məlahət**

**Elan**

Sağlam Həyat Mədəniyyəti İB-nin möhürü itdiyi üçün etibarsız sayılır.

# HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Qaradağ rayon İcra Şöbəsinin 08.07.2021-ci il tarixli (daxil olma 09.07.2021), 17/65-179781-2/6 saylı sifarişi ilə "VAZ 2106" minik markalı, 90-GD-183 dövlət qeydiyyat nişanlı, (Sedan, 2003-CÜ İL BURAXILIŞLI, Ban: XTK21060030047561, tünd yaşıl rəngdə) avtomobil açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 23 iyul 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 4.000 (dörd min) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 10%-i, yəni 400 (dörd yüz) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

Qobustan rayon İcra Şöbəsinin 09.07.2021-ci il tarixli (daxil olma 09.07.2021), 20088/2017-35-5-93 saylı sifarişi ilə 0.0155 ha torpaq sahəsinin üzərində yerləşən, ümumi sahəsi 68.60 kv. metr olan, 2 otaqlı fərdi yaşayış evi və 0.114240 ha kənd təsərrüfatlı təyinatlı torpaq sahəsi açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 23 iyul 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakların ilkin satış qiyməti: (fərdi yaşayış evi) - 20.000 (iyirmi min) manat; (torpaq sahəsi) - 3.427 (üç min dörd yüz iyirmi yeddi) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni (fərdi yaşayış evi) - 1.000 (bir min) manat; (torpaq sahəsi) - 171 (bir yüz yetmiş bir) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) saat qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

5) Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

6) şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

7) Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beş məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.

8) Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 5 (beş) iş günü müddətində geri qaytarılır;

9) Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

10) Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzürlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır. Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini "sifarişçi" icra qurumunun depozit hesabına köçürməlidir.

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**
**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**
**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**
*rəsmi internet saytı: e-herrac.com*


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və **"Azərbaycan"** nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, **"Azərbaycan"** nəşriyyatı.
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1239




# İtkin düşəni ayı parçalayıb

Həsənin cansız bədəni parçalanmış formada aşkarlanıb

**Sivasın Divriği mahalında bir müddətdir ki, itkin düşən Həsən Əli Dalkıranın meyiti aşkarlanıb.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, Həsənin cansız bədəni parçalanmış formada aşkarlanıb. Onun ayı hücumunda öldüyü güman edilir. Dalkıranın ölümünün dəqiq səbəbi ekspertizadan sonra aydınlaşacaq.

*Qeyd edək ki, 47 yaşlı Həsənin meyiti qardaşları tərəfindən tapılıb. Hadisə ilə bağlı istintaq başladılıb.*

**Aynurə**

# Dünyanın ən uzaq insan məskəni...

Ora getmək və orada yaşamaq çox çətindir



**Tristan da Kunya dünyanın digər yerlərindən ən uzaq olan insan məskənidir.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, bu ərazi Latın Amerikası və Afrikanın ortasında Atlantik okeanının cənubunda yerləşir. Tristan da Kunya dünyanın ən çətin yeri olaraq bilinir. Ora getmək və orada yaşamaq çox çətindir. Çünki Tristan da Kunya dünyanın qalan hissəsindən çox təcrid olunmuş bir yerdir. Tristan de Cunha Britaniyanın bir hissəsidir. Bununla birlikdə, İngiltərədən minlərlə kilometr məsafədədir. Adaya ən yaxın məskunlaşma yeri Cənubi Afrika Respublikasındakı Keyptaun şəhəridir. Dünyanın ən uzaq adasında yalnız 300 nəfər yaşayır. Tristan da Kunyanın dünyaya yeganə qapısı kiçik limanıdır. Adanın ən diqqətçəkən cəhətlərindən biri də burada puldan istifadə edilməməsidir. Adanın əkinçilik və heyvandarlıq ilə məşğul olan sakinlərinin pula ehtiyacı yoxdur. Tristan da Kunyada da yüzillər əvvəl olduğu kimi insanlar ehtiyaclarını mübadilə yolu ilə qarşılayırlar. Adadakı iqtisadi quruluş tamamilə mübadilə sisteminə əsaslanır.

**Aynurə**

# 4.2 milyon dollara...

Məşhur yazıçının evi satışa çıxarılıb




**Məşhur yazıçı Mark Tvenin ikonik malikanəsi satışa çıxarılıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, malikanə 4.2 milyon dollara təklif edilir.

Mark Tvenin ölümünə qədər yaşadığı bu malikanə İngiltərənin Redding şəhərindəki Toskana üslublu villa "Sothebys"də yerləşir. Malikanədə 4 yataq otağı, 3 kamin, hovuz və 3 qaraj var. Tven İtaliyadan qayıtdıqdan sonra bir ev tikdirməyə qərar verib. Mark bu evin İtaliyada yaşadığı zamanlardan təsirlənərək Toskana üslubunda olmasını istəyib. Ancaq onun ölümündən sonra 1923-cü ildə çıxan yanğında ev ziyan görür. Lakin orijinal terasları, daş-divarları, daş sütunları və bağları qorunaraq 1925-ci ildə eyni təməl üzərində yenidən təmir olunub.

**Yeganə**



# Xəyalları gerçək oldu

*Bəy gəlini ata evindən kranla çıxardı*




**Dənizlidə maraqlı toy mərasimi keçirilib. "Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, bəy Emre Karaoğlan həyatını birləşdirdiyi Melisa Karaoğlanı yaşadığı mənzildən bəzədilmiş kranla götürüb.**

Emre Karaoğlan özü də Dənizlidə kran operatoru işləyir. Emre nağara və zurna sədaları altında "Harmandalı" oynadıqdan sonra qaldırıcının səbətinə minib. Daha sonra o, kranla ikinci mərtəbəyə, yəni gəlinin yaşadığı evə qalxıb. Dua ilə ata evindən ayrılan gəlin Karaoğlanla birlikdə krana minərək aşağı enib. Toya gələnlər həmin anları maraqla izləyiblər, çoxlu video və foto çəkiblər. Emre Karaoğlan bu fikri kran operatoru olduğu gündən bəri həyata keçirmək istəyində olduğunu deyib. O bildirib ki, nəhayət ki, xəyalını reallaşdıra bilib: "Çox gözəl hisslər yaşadıq. Bunu etmədən əvvəl həyat yoldaşımdan icazə aldım. Onu çox çətin razı edə bildim. Sevinirəm ki, fərqli bir şeyə imza atdıq". Gəlin Melisa Karaoğlan söyləyib ki, heç zaman belə bir şey yaşayacağını düşünməyib: "Mən duyğusal bir adamam. Çox həyəcanlı idim. Qorxu yaşamadım. Gözəl bir hadisə oldu. Həyatımızı birləşdirdiyimiz üçün çox xoşbəxtik".

**Aynurə**

# Xəstəyə süni qollar köçürüldü

Bu əməliyyat Türkiyədə sayca 5-cidir





48 saat sonra özündə dəyişikliyi görən xəstə, "nə vaxt çalışacaq" deyə həkimə müraciət edib

**Evli və 1 övlad atası polis məmuru Sami Şahin beyin qanaması keçirib.**

Antalya Universiteti Xəstəxanasına aparılan S.Şahinin beyin ölümü gerçəkləşdiyi məlum olduqda ailəsi orqanlarının bağışlamaq qərarına gəlib. Sami Şahinin qolları 9 yaşındaykən dinamit partlaması nəticəsində əllərini bilək hissədən itirən, hazırda 34 yaşında olan Yavuz Ayılmazdıra nəql edilib. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, əməliyyat 14 saat davam edib. Reanimasiya şöbəsindəki müalicəsi isə 60 saat sürən Y.Ayılmazdır, sonra steril bir otağa köçürülüb. Əməliyyatı Antalya Universiteti Tibb Fakültəsi Plastik Rekonstruktiv və Estetik Cərrahi kafedrasının professoru doktor Ömər Özkan həyata keçirib.

*(Davamı səh: 16-də)*

**Məlahət**



# Qolf topunu ildırım vurdu

18 yaşlı Tomas hadisəni heç unutmayacaq

**ABŞ-ın Texas əyalətində qeyri-adi bir hadisə baş verib. Bir qrup yeniyetmə qolf oynayarkən topu ildırım vurub.**

"Şərq" "Ntv.com"a istinadən bildirir ki, Texasın San-Antonio şəhərindəki "Topgolf" klubunda yaşanıb. Şimşək 18 yaşlı Tomas Gomez tərəfindən vurulan qolf topuna dəyib. Gomez qeyri-adi məqamı xatırlayaraq bu sözləri deyib: "İldırım mənə yox, topa dəydiyinə görə çox sevindim. Həmin anı unuda bilmirəm. Çox güman ki, uzun müddət də unudan deyiləm".

**Yeganə**